

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Mərkəzi Aparatında müşavirə keçirilib



4

# Azərbaycan tarixi ədalətsizliklə barışmayacaq!



2

Prezident İlham Əliyev: "Ermənistan Qərbi azərbaycanlıların hüquqlarının bərpası istiqamətində addımlar atmalıdır"

SƏS
№ 225 (7150)
6 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Qərbin ənənəvi ssenarisi: GÜRCÜSTAN AVROMAYDANI



3

## Doğum azalır, dünya qocalır



15

## Şəxs bankdan kredit götürüb ödəyə bilmirsə NƏ ETMƏLİ?




16

## Sosial şəbəkələr: belə getsə, məhv edəcək!




8

## Ermənistanın KTMT-dən Azərbaycana qarşı istifadə planları alınmadı



9

## Piter Mixalko yenə də əsas şoumen olaraq səhnədədir



10

## Rəsmi xronika

Prezident İlham Əliyev Qərbi Azərbaycan həqiqətlərinin təbliği sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Naxçıvan Sənaye Parkının yaradılması haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları sahəsi işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Vüsal Cahangir oğlu Xəlilov Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavini təyin edilib. Trend xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

***

Dövlət başçısının digər Sərəncamları ilə Əli İsmayıl oğlu Əhmədov, Toğrul Nəcəfəli oğlu Əliyev və Gülər Azər qızı Paşayeva Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin müavinləri təyin ediliblər.

# Azərbaycan tarixi ədalətsizliklə barışmayacaq!

## Prezident İlham Əliyev: "Ermənistan Qərbi azərbaycanlıların hüquqlarının bərpası istiqamətində addımlar atmalıdır"



***"Azərbaycan xalqı ədalətsizliklə heç vaxt barışmayıb, haqq səsini dünyaya çatdırmağa çalışıb". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən II beynəlxalq konfransın iştirakçılarına müraciətində ifadə edib.***

Dövlətimizin başçısı əlavə edib ki, 2020-ci ildə Azərbaycanın şanlı Qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı: "Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda "Böyük Qayıdışa dair Dövlət proqramı" uğurla icra edilir".

Əlbəttə ki, Vətən müharibəsini Zəfərlə yekunlaşdıran Azərbaycan Qarabağa və Şərqi Zəngəzura Böyük Qayıdış konsepsiyasını həyata keçirir. Qərbi azərbaycanlıların da öz dədə-baba yurdlarına dönüşü gerçəkləşdirmək əsas məsələlərdəndir.

Tarixi mənbələrə nəzər salarkən görürük ki, İrəvan xanlığının yarandığı ərazi ən qədim türk torpaqlarıdır və bu ərazidə qədim abidələrimizin mövcudluğu onun xalqımıza məxsusluğunu sübut edən amillərdəndir. Ermənilər Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışmışlar. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdların tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

### "AZƏRBAYCANLILAR ETNİK TƏMİZLƏMƏYƏ MƏRUZ QALARAQ, TARİXİ VƏTƏNLƏRİNDƏN MƏRHƏLƏLİ ŞƏKİLDƏ ZORLA ÇIXARILMIŞLAR"

Azərbaycan Prezidenti müraciətində hazırda dünyada 120 milyondan çox insanın məcburi köçürülmə problemi ilə qarşılaşdığını qeyd edərək, beynəlxalq ictimaiyyəti birgə səyləri olmadan bu problemin effektiv həllinin mümkünsüz olduğunu bildirib.

Azərbaycan xalqı da ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşmişdir. "Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılmışlar", - deyə Prezident bildirib.

XIX-XX əsrlər ərzində erməni millətçiləri Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırımı siyasəti yürüdüblər və mərhələli şəkildə həyata keçirilən məkrli plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - tarixi torpaqlarından qovulublar. 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə tarixi şəhərimiz - İrəvan Ermənistana bağışlanıb. 1920-ci ildə Zəngəzur və Azərbaycanın bir sıra digər torpaqları sovet hökumətinin xain siyasəti nəticəsində Ermənistana birləşdirilib, 1948-1953-cü illərdə Qərbi azərbaycanlılar növbəti deportasiyaya məruz qalıblar. 1988-ci ildən erməni millətçiləri sovet hökumətinin dəstəyi ilə azərbaycanlıları tarixi diyarları Qərbi Azərbaycandan deportasiya ediblər. İki əsrə yaxın müddətdə erməni təcavüzü ilə üz-üzə qalan, tarixi yurdlarından deportasiya edilən, kütləvi qırğınlara, soyqırımlarına, işgəncələrə məruz qalan Qərbi azərbaycanlılar öz dədə-baba yurdlarından uzaq düşmüşlər.

### "ÜMUMBƏŞƏRİ MƏDƏNİ DƏYƏR KİMİ TANINAN AZƏRBAYCAN AŞIQ SƏNƏTİNƏ CİDDİ ZƏRƏR VURMUŞDUR"

"1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınmışdır. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamış və Ermənistan monoetnik dövlətə çevrilmişdir", - müraciətində qeyd edən Prezident bildirib ki, Ermənistan Azərbaycan xalqının əsrlər boyu öz dədə-baba torpaqlarında yaşaması və zəngin mədəni irs yaratması faktını hər vəchlə danmağa çalışır: "Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi - tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıtmış, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurmuşdur".

Qərbi Azərbaycan ölkəmizin tarixinə görə qədim bölgələrdən biridir. Burada mövcud olan qəbirsanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. XIX əsrin əvvəllərində İrəvanda 8 karvansara mövcud olmuşdur. Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olmuşdur. İrəvanda Şərq memarlıq üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim, Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları var idi. XIX əsrin sonları, XX əsrin əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə mövcud idi. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra məscidlər bir-birinin ardınca dağıdılmışdır. Göy məsciddə İrəvan şəhərinin tarix muzeyi yerləşdirilmiş, Zal xan məscidi rəssamların sərgi salonuna çevrilmişdi. Erməni vandalları İrəvan qalasını və onun içərisində yerləşən bütün tarixi-memarlıq abidələrini tədricən yer üzündən sildilər. İrəvanda məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

### İKİ ÖLKƏ ARASINDA DAYANIQLI SÜLHÜN ƏLDƏ OLUNMASINA MANEƏLƏR YARADILIR

"Bu tarixi-mədəni abidələr arasında yalnız Azərbaycan memarlığının və İslam mədəniyyətinin parlaq nümunələrindən biri olan Göy Məscid salamat qalmışdır. Lakin Ermənistan Göy Məscidin orijinal tarixi-memarlıq üslubunu qəsdən dəyişdirərək onu başqa ad altında təqdim etməyə çalışır. Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyildir" - deyə Prezident bildirib.

Əlbəttə ki, göründüyü kimi, İrəvan şəhərində tarixi-memarlıq abidələrinə, dini ocaqlarımıza olan təcavüz xalqımızın tarixi keçmişini yer üzündən silmək məqsədi daşıyıb. Ermənistan öz ərazisində azərbaycanlıların hamısını atababa yurdlarından çıxarıb və bu gün Ermənistanda bir nəfər də azərbaycanlı qalmayıb. Ermənistan qəbiristanlıqlarımızı, mədəni və dini abidələrimizi məqsədyönlü şəkildə məhv edərək, maddi və qeyri-maddi mədəni irsimizə ciddi zərbə vurub. Ermənistan ölkə ərazisində ki Azərbaycan mədəni irsinin vəziyyətinin araşdırılması üçün UNESCO-nun missiya göndərməsinə icazə vermir. Ermənistanın monoetnik cəmiyyət yaratmaq siyasəti bölgənin zəngin etnik və dini müxtəliflik ənənələri və tarixi ilə ziddiyyət təşkil edir.

"Ermənistan bununla da kifayətlənməmiş, Azərbaycana qarşı hərbi təcavüzə əl ataraq onun ərazilərini işğal etmiş, etnik təmizləmə törətmiş, şəhər və kəndləri dağıtmış, talan etmiş, torpaqlarımızı saysız-hesabsız minalarla çirkləndirmişdir", - qeyd edən Prezident bildirib ki, Azərbaycan xalqı heç vaxt bu ədalətsizliklə barışmamış, haqq səsini dünyaya çatdırmağa çalışmışdır: "2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə bitən Vətən müharibəsi Qarabağdan və Şərqi Zəngəzurdan qovulmuş soydaşlarımızın doğma yurdlarına qayıdışına imkan yaratdı. Azərbaycanın bu ədalətli savaşı beynəlxalq hüququn aliliyinin təntənəsi və qlobal miqyasda məcburi köçürülmə probleminin həllinə verilmiş böyük bir töhfədir. İşğaldan azad edilmiş ərazilərdə hazırda "Böyük Qayıdışa dair Dövlət Proqramı" uğurla icra edilir.

Təəssüf ki, Ermənistan cəmiyyətində xalqımıza qarşı dərin kök salmış nifrət hissi, mifik "böyük Ermənistan" xülyası, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiasının hələ də qalması, bu ölkənin sürətlə silahlanması iki ölkə arasında dayanıqlı sülhün əldə olunmasını əngəlləyir".

### QƏRBİ AZƏRBAYCAN İCMASI DƏFƏLƏRLƏ ERMƏNİSTAN HÖKUMƏTİNİ DİALOQA ÇAĞIRIB

Ermənistanın Qərbi Azərbaycan İcmasının fəaliyyətini qəsdən öz ərazi bütövlüyünə təhdid kimi təqdim etməyə çalışdığını bildirən Cənab Prezident qeyd edib ki, icmanın məqsədi Qərbi Azərbaycandan didərgin salınmış soydaşlarımızın dinc və təhlükəsiz şəraitdə, ləyaqətlə öz dədə-baba yurdlarına qayıdışının təmin olunmasından ibarətdir. "Bu, sırf insan haqları məsələsidir. Ermənistanın İcmanın fəaliyyətini təhdid kimi qələmə verməsi məsələnin əsl mahiyyətini təhrif etmək və beynəlxalq hüquqa əsaslanan qayıdış hüququnu inkar etmək cəhdidir.

Qərbi Azərbaycan İcması dəfələrlə Ermənistan hökumətini dialoqa çağırmış, lakin qarşı tərəf bundan imtina etmişdir. Ermənistan İcma ilə danışıqlara başlamalı və Qərbi azərbaycanlıların fundamental hüquqlarının bərpa edilməsi istiqamətində praktiki addımlar atmalıdır. Bundan əlavə, Ermənistan xalqımıza məxsus tarixi-mədəni irsin dağıdılması, təhrif edilməsi ilə bağlı vəziyyətin monitorinqi məqsədilə UNESCO-nun faktların araşdırılması missiyasının səfərinə icazə verməli və bu sahədə əməkdaşlıq etməlidir.

Qərbi Azərbaycan İcması üzvlərinin doğma torpaqlara qayıdış hüququnu təmin etmək məqsədilə beynəlxalq hüquqa uyğun dinc təşəbbüslərinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi olduqca əhəmiyyətlidir. Uğurla həyata keçirilən Qayıdış Konsepsiyasına əsaslanan bu təşəbbüslər Qərbi azərbaycanlıların sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına geri dönməsinə böyük töhfələr verəcəkdir".

Müraciətdə o da qeyd olunub ki, müxtəlif vaxtlarda dədə-baba torpaqlarından zorla köçürülmüş, hazırda Azərbaycanda və dünyanın bir sıra ölkələrində məskunlaşmış minlərlə Qərbi Azərbaycan əsilli şəxsin hüquqlarının müdafiəsinə həsr edilmiş konfransın işinə uğurlar arzulayıram: "Əminəm ki, Azərbaycan xalqının zaman-zaman məruz qaldığı deportasiyalar barədə həqiqətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdıran bu beynəlxalq konfrans yaxın gələcəkdə qayıdış hüququ və dünyada köçkünlük problemi ilə bağlı fikir mübadiləsi aparılacaq önəmli beynəlxalq dialoq platformasına çevriləcəkdir."

Qərbi azərbaycanlıların ermənilər tərəfindən tarixi yurdlarından deportasiya olunmaları və hüquqlarının pozulmaları, eləcə də bu soydaşlarımızın öz dədə-baba yurdlarına qayıdışının təmin edilməsi istiqamətindəki məsələlərin beynəlxalq gündəliyə daxil edilməsi istiqamətində mühüm işlər görülür.

Qərbi azərbaycanlıların hüquqlarının sülh yolu ilə təminatı üçün əsas şərtlərdən biri beynəlxalq müstəvidə fəallığı artırmaqdır. Qarabağ və Şərqi Zəngəzur kimi, Qərbi Azərbaycan da öz doğma sakinlərinə qovuşacaqdır.

***Zümrüd BAYRAMOVA***

# Qərbin ənənəvi ssenarisi: GÜRCÜSTAN AVROMAYDANI

***Maydana görə Ukrayna öz suverenliyi bahasına cavab verməli, "ödəməli" oldu, hansı ki, bunu təkcə ukraynalılar yox, bütün dünya ictimaiyyəti aydın şəkildə müşahidə etdi, gördü. İndi də görünən odur ki, Qərb məhz Gürcüstandan da eyni "qiyməti", eyni "ödənişi" etməsi üçün çalışır. Əgər gürcülər bunu tam zamanında, daha doğrusu indidən başa düşməsələr eyni aqibətlə qarşılaşmaq məcburiyyətində qalmalı olacaqlar, çünki ssenari eynidirsə, deməli, məntiqi olaraq, eyni sonluq da gözləniləndir.***



## Qərb Gürcüstana birbaşa təzyiq göstərməyə başlayıb və Tbilisidə də Maydan cəhdi artıq ortadadır

Bu həftə diqqət mərkəzində artıq Ukrayna yox, tamamilə başqa bir bölgə, yəni, Qafqaz, daha doğrusu Gürcüstan oldu. Bu da səbəbsiz deyil. Ona görə Gürcüstan diqqət mərkəzində oldu ki, həmin ölkə bir növ yenidən vətəndaş müharibəsi astanasında görünməkdədir. Son seçkilərdə heç kimin tələbinə boyun əymək fikrində olmayan hakim partiyanın ölkədə hakimiyyəti əlində saxlaya bilməsi Qərb üçün heç də qəbulolunan hesab edilməməsi fonunda əlbəttə ki, müdaxilələr diqqəti cəlb etməyə bilməzdi. Yəni, "Gürcü arzusu" partiyasının, hakim partiyanın məhz ölkənin suverenliyini qurban verməkdən imtina etməsi "şər qüvvələri" bir növ hərəkətə keçirib və ortada kənar bir oyunçunun suflyorluğu sayəsində qonşu ölkədə ara qarışıb, xaos da getdikcə artmaqdadır.

Müşahidələr belə göstərir ki, Qərb Gürcüstana birbaşa təzyiq göstərməyə başlayıb. Əsas təhdidlərin məhz Gürcüstanın Aİ-yə daxil olub-olmaması məsələsindən qaynaqlandığı da gizli deyil. Rəsmi Tbilisi açıq şəkildə, özü də qətiyyətlə bildirir ki, xarici şantaj və təhdidlər şəraitində Aİ-yə gedən yol gürcü arzusu deyil. Məsələ burasındadır ki, elə bundan sonra da ən "maraqlı" və üzdə aşkar bir proses start götürür. Bəli, Tbilisidə də Maydan cəhdi artıq ortadadır. İddialara görə, vətəndaş etirazı çox sürətlə kütləvi iğtişaşlara çevrilir. Məhz 10 il əvvəl Ukrayna üçün yumşaqlığın nə ilə nəticələndiyini xatırladığı üçün, bu etirazları və iğtişaşları Gürcüstan hakimiyyəti olduqca sərt şəkildə yatırır. Maraqlıdır ki, bəzi məlumatlara görə, saxlanılanlar arasında Rusiyadan köçənlər də az deyil. Görəsən əvvəl bir ölkədə, indi də başqa ölkədə rejimə qarşı mübarizə aparmağa çalışanlar nə məqsəd güdə bilərlər? Yoxsa bu dəfə də Gürcüstan Avropmaydanı planlaşdırılır?

## Rəsmi Tbilisi bərk ehtiyat edir və ölkənin arzuolunmaz vəziyyətə gətirilməsinin qarşısını almağa çalışır

Etirazların artıq Gürcüstanın böyük şəhərlərinə yayılması çox ciddi şəkildə həmin ölkədə narahatlıq doğurub. Tbilisinin küçələrində yenidən aqressiv izdihamın görünməsi artıq həyəcan təbili üçün əsas yaradır. Rustaveli prospektində "barrikadalar" yanırsa, deməli, vəziyyət artıq düşünüldüyündən də daha ağırdır. Hətta bundan da ağır olacağı düşünülür. Təsadüfi deyil ki, polis nümayişçiləri dağıtmağa başlayıb. İndi Gürcüstan polisi Azadlıq meydanından hərəkətə keçib və zəncir şəklində hazır vəziyyətdə düzülüblər. Onların plastik qalxanları da var və parlamentə doğru irəliləmələri heç də təsadüfi, yaxud səbəbsiz deyil. Görünür, Gürcüstan hökuməti çox ehtiyatlanır və qabaqlayıcı tədbirlərin görülməsini ən vacib hesab edir.

Xüsusən də təhlükəsizlik qüvvələrinin etirazçıları su şırnaqları və gözyaşardıcı qazla dağıtmaları vəziyyətin nə dərəcədə ciddi olduğundan xəbər verir. Xüsusi təyinatlıların etirazçıları Rustaveli prospektindən sıxışdırıb çıxarmağa başlaması, digər tərəfdən də onların gözyaşardıcı qazdan istifadə etmək qərarına gəlməsi onu göstərir ki, qonşu ölkə hakimiyyəti, rəsmi Tbilisi bərk ehtiyat edir və ölkənin arzuolunmaz vəziyyətə gətirilməsinin qarşısını almağa çalışır. Çünki hazırkı hakimiyyət başa düşür ki, Qərb indi də məhz Gürcüstan üçün bir Maydan ssenarisi cızıb və məqsəd də eyni ilə Ukraynanın başına gətirilən halın təkrarlanmasından ibarətdir. Bunu isə təkcə Gürcüstanın yox, heç bir ölkənin, təbii ki, sabitliyi, stabilliyi ən vacib hesab edən heç bir ölkənin hakimiyyəti qəbul edə bilməz.

## Ortada hamıya tanış olan rəngli inqilab ssenarisinin konturlarıdır

Etirazçılar da öz növbəsində polis əməkdaşlarını döyməklə, onlara qarşı qanunsuz davranmaqla, güc tətbiq etməklə cavab verirlər. Küçələrdə təkərlər, eləcə də zibil qutuları yandırılır və bununla da süni şəkildə, özü də "əvvəlcədən düşünülmüş" qorxulu bir mənzərə formalaşdırılır. Avtomobilləri aşıranlar da elə həmin mənzərəni daha "rəngarəng" etmək üçün bunu edirlər. Özü də hazır ssenarilərə uyğun olaraq edildiyi zərrə qədər də şübhə doğurmur. Qarşıdurmalar təxribatların fonunda baş verir. Bütün bunların məhz "Qərbin barmağı" olmadan baş verməsi qətiyyən mümkün hesab edilmir. Ona görə ki, ortada hamıya tanış olan rəngli inqilab ssenarisinin konturlarıdır.

"Xarici nümayəndələr zorakılığı pisləmirlər, əksinə, görünür ki, Gürcüstanın Ukraynaya çevrilməsini təşviq etmək niyyətindədirlər", deyə Gürcüstanın baş naziri İrakli Kobaxidze özü də açıq şəkildə bildirib. Deməli, rəsmi şəkildə bildirilir ki, məqsəd heç də xoş niyyət deyil. Aydın şəkildə də görünür ki, Qərb elitası son seçkilərin nəticələri ilə, daha dəqiq desək, hakim "Gürcü arzusu" partiyasının qələbəsi ilə barışa bilməyib. Hətta Qərb liderləri açıq şəkildə də dəfələrlə bəyan ediblər ki, Gürcüstan Aİ-nin üzvü olmalıdır və belə çıxır ki, ancaq müstəqil ölkə kimi mövcud olması onlar tərəfindən heç də qəbul edilən deyil. Ona görə də aranı qızışdırmaq planı işə salınıb və Gürcüstan Avropmaydanı ssenarisinin artıq tətbiq edildiyi göz önündədir.

## Brüsselin məhz Gürcüstandakı səsvermənin nəticələrini tanımayan qətnaməni təsdiqləməsi hər şeydən xəbər verir

"Bizim Aİ-yə inteqrasiyanı xeyriyyəçilik kimi qəbul etməyimiz qətiyyən qəbuledilməzdir və onlar Gürcüstandan bizim ləyaqətimizi inkar edən addımlar tələb edirlər", deyə Kobaxidze xüsusilə vurğulayıb. Bəli, ötən həftə Brüssel Gürcüstandakı səsvermənin nəticələrini tanımayan qətnaməni təsdiqləyib ki, bu özü də gürcü baş nazirin dediklərini təsdiqləyir. "Avropa Parlamenti Gürcüstanda parlament seçkilərinin hər hansı şəkildə tanınmasını rədd edir və onların yenidən keçirilməsini tələb edir", - deyə Qətnamədə qeyd olunursa, buna təxribat törətmək niyyətindən başqa ad vermək mümkün deyil.

"Bizim prioritetimiz Gürcüstanı Avropa İttifaqına üzvlüyə hazırlamaqdır və bunun üçün bizə dialoq lazımdır və ultimatumların dilində danışmamalıyıq", deyən "Gürcü Arzusu"nun üzvü Maka Boçorişvili vurğulayıb ki, bunun özü də ölkənin daxili işlərinə qarışmaq cəhdlərinin cavabı olaraq, aydın və anlaşılandır. Amma bir çox rəsmilər də öz fikirlərini gizlətmirlər və açıq şəkildə bildirirlər. Məsələn, ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller deyib ki, "Gürcüstan hökuməti Avro-Atlantik yoluna qayıtmalıdır". Siyasətçilərin bəziləri şərt də qoymaqdan çəkinmirlər. "Siz sadəcə olaraq, həm Rusiya ilə əlaqələri saxlaya və həm də ölkənizin Aİ-nin bir hissəsi olacağını gözləyə bilməzsiniz və bu iki şeydən biri olmalıdır", deyən Avropa diplomatiyasının keçmiş rəhbəri Josep Borrell də öz mövqeyini açıq şəkildə bildirib və qətiyyən gizlətmək istəməyib.

## Qərb dirəniş göstərir və özünün ənənəvi ssenarisinə uyğun şəkildə Gürcüstan Avromaydanı niyyətini qətiyyən gizlətmir

"Ukrayna ssenarisi" artıq ortadadır. Heç nədən çəkinmədən indi nümayişçilər təhlükəsizlik qüvvələrinə qarşı "atəşfəşanlıq" edirlər. Onlar tüstü bombaları və daşlar atırlar, eyni ilə on il əvvəl Ukraynada baş verən etirazçılar kimi. "İsti geyinin, çətir, çay, qəhvə, yaxşı əhval-ruhiyyə və dostlar götürün", deyə çağırışlar edilir. Bax elə Avromaydan da belə başlayır. Təxribatların ardınca da Qərb kuratorlarının ciddi rəhbərliyi altında çevriliş baş verir. Budur ssenari və bunu Gürcüstan hakimiyyəti bir zamanlar çox yaxşı müşahidə etdiyi üçün hadisələrə olduqca ciddi yanaşır.

"Qərb mövcud hökuməti yıxmaq üçün müxtəlif mexanizmlərə əl atacaq və ikili standartlardan istifadə edərək bunu edəcəklər, çünki onlar ikili standartların tərəfdarıdırlar", deyə Sülh Naminə Həmrəylik Partiyasının beynəlxalq katibi Mamuka Pipia bildirib. Bəli, o haqlıdır. Bilir ki, etirazlar Qərbdən, ABŞ və İngiltərədən gələn pullarla reallaşdırılır. Onlar üçün isə heç də haqq-ədalət, qanunun aliliyi nəzərə alınmır və istədiklərini doğru, etdiklərini ədalətli, törətdiklərini də qanuni hesab edirlər, bunun üçün də bütün əməllərə, xüsusən də ikili yanaşmaya əl atırlar. Etirazlara da müxalifət partiyaları və Salome Zurabişvilinin rəhbərlik etməsini doğru sayırlar, çünki öz məqsədləri üçün sərfəli bilinir. "Qanuni parlament legitim prezident seçənə qədər mən prezident olacağam", deyən Zurabişvili məhz Qərbin dəyirmanına su tökür. Məsələ burasındadır ki, yeni qaydalara görə, Gürcüstan prezidentini Seçicilər Kollegiyası təyin etməlidir. Namizəd Zurabişvilinin adı isə heç siyahıda da yoxdur. Amma "Gürcü arzusu"ndan Mixail Kavilaşvilinin adı var. "Partiyanın birliyini sarsıtmaq mümkün olmayacaq", deyə Kavilaşvilinin bildirməsi isə onu göstərir ki, Gürcüstanın mövcud hakimiyyəti hələ ciddi müqavimət göstərir və qətiyyən kənar müdaxiləni qəbul etmir. Bəli, əslində, Gürcüstan öz müstəqillik hüququnu müdafiə etməyə çalışır və ona hörmətlə yanaşmağı tələb edir.

Sözsüz ki, Gürcüstan hakimiyyətinin hərəkətlərinin nə dərəcədə ardıcıl olacağından çox şey asılıdır. Qərarsızlığın istənilən təzahürü ən ağır nəticələrə gətirib çıxara bilər. Ən azından ölkə etiraz dalğası ilə qarışdırılmaqla məhvə sürüklənə bilər. Amma hələlik hakim partiya öz mövqeyindədir və qanunu, asayişi, müstəqilliyi hər şeydən üstün tutur. Lakin Qərb də dirəniş göstərir və özünün ənənəvi ssenarisinə uyğun şəkildə Gürcüstan Avromaydanı niyyətini qətiyyən gizlətmir...

***İnam Hacıyev***



# YAP Mərkəzi Aparatında müşavirə keçirilib



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar dekabrın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında yerli seçki qərargahları sədrlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə YAP İdarə Heyətinin 2024-cü il 2 dekabr tarixli qərarı ilə təsdiq edilmiş Tədbirlər Planında əks olunan əsas hərəkət və tədbirlərin vaxtında və mütəşəkkil həyata keçirilməsi ilə əlaqədar müzakirələr aparılıb, qanunvericiliyin tələblərinə ciddi riayət olunmasının zəruriliyi diqqətə çatdırılaraq qarşıda duran vəzifələrlə əlaqədar müvafiq tapşırıq və tövsiyələr verilib.

# "Dinlə, məlumatlı ol, gələcəyinə sahib çıx!"

Dekabrın 5-də Salyan rayonunda "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq "Dinlə, məlumatlı ol, gələcəyinə sahib çıx!" mövzusunda interaktiv təlim təşkil olunub.

Əvvəlcə tədbir iştirakçıları Salyan şəhərində Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi ehtiramla yad edilib.








Tədbirdə YAP Salyan rayon təşkilatı sədrinin müavini Aqşin Babayev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva, Salyan Rayon İcra Hakimiyyəti başçısının müavini, RİH yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Komissiyanın sədri Rəşad Cəbrayılov, Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev və Səhiyyə Nazirliyi Sumqayıt Şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Azərbaycanda narkomaniya ilə qətiyyətli mübarizə aparılır. Bu istiqamətdə müxtəlif dövlət proqramları qəbul edilib və bir çox layihələr həyata keçirilib. Vurğulanıb ki, cəmiyyətdə, xüsusilə gənclər arasında zərərli vərdişlərin qarşısının alınması məqsədilə təbliğat işləri çox mühüm əhəmiyyət daşıyır. Yeniyetmə və gənclərin narkomaniyadan qorunması sağlam gələcəyin təmin olunması üçün əsas şərtlərdəndir.

Diqqətə çatdırılıb ki, tədbirin əsas məqsədi narkotik vasitələrdən istifadənin fəsadlarına dair maarifləndirmə işlərini gücləndirmək və gənc nəslin təhlükəli vərdişlərə aludə olmasının qarşısını almaqdır.





İnteraktiv formada davam etdirilən təlimdə iştirakçıların sualları cavablandırılıb. Tədbir iştirakçılarına narkomaniya ilə mübarizənin təşviqi məqsədilə Dövlət Komissiyasının İşçi qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər paylanıb.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekunlaşıb.

# YAP və AK Parti sədrlərinin müavinləri arasında görüş keçirilib





***Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən ikinci beynəlxalq konfransda iştirak etmək məqsədilə Azərbaycana səfərə gələn Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin Xarici əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvü Zafer Sırakayanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə dekabrın 5-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında görüş keçirilib.***

Qonaqları salamlayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, əsrlərin sınağından şərəflə çıxan Azərbaycan-Türkiyə münasibətləri bu gün dünyada nümunəvi xarakter daşıyır. O, ortaq milli-mənəvi dəyərlər və köklü tarixi ənənələr üzərində təşəkkül tapmış, "bir millət, iki dövlət" prinsipinə, dostluğa və qardaşlığa əsaslanan ölkələrarası əlaqələrin dövlət başçılarının iradələri əsasında keyfiyyətcə yeni mərhələyə yüksələrək uğurla inkişaf etdiyini vurğulayıb.

Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətlərinin daha geniş coğrafiyada, o cümlədən Türk dünyasında dayanıqlı təhlükəsizliyə və çoxşaxəli əməkdaşlığa xidmət etdiyini söyləyən YAP Sədrinin müavini diqqətə çatdırıb ki, Türk Dövlətləri Təşkilatının müasir beynəlxalq münasibətlər sistemində rolunun artırılması və mövqeyinin möhkəmləndirilməsi mühüm strateji hədəf kimi hər iki ölkə üçün prioritetdir.

YAP Sədrinin müavini "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılan azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən ikinci beynəlxalq konfransın önəminə diqqəti cəlb edərək bildirib ki, soydaşlarımızın öz ata-baba torpaqlarından zorla çıxarılması beynəlxalq hüquq normalarının kobudcasına pozulmasıdır. O, həmvətənlərimizin Qərbi Azərbaycana qayıdışı məsələsinin bütün Türk dünyası üçün aktual və önəmli olduğunu söyləyib, qardaş ölkənin mənəvi-siyasi dəstəyinə görə minnətdarlığını ifadə edib.

Azərbaycan-Türkiyə birliyinin gücləndirilməsində hakim partiyalar arasında münasibətlərin roluna diqqəti cəlb edən Tahir Budaqov 2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında Əməkdaşlıq Protokolunun və 2023-cü il noyabrın 14-də YAP, AK Parti və Şimali Kipr Türk Cümhuriyyətinin Ulusal Birlik Partiyası arasında üçtərəfli Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyətindən bəhs edərək qarşıda duran vəzifələrin bugünədək uğurla icra olunduğunu məmnunluqla vurğulayıb. "Yeni çağırışlar müasir beynəlxalq münasibətlər sisteminin nüfuzlu dövlətləri olan Azərbaycan ilə Türkiyəni daha güclü olmağa vadar edir. Bu prosesdə YAP ilə AK Partinin də üzərinə mühüm vəzifələr düşür. Qardaş ölkələrin hakim siyasi partiyaları kimi məqsədyönlü fəaliyyətimizi ardıcıl şəkildə davam etdirməklə bütün hədəflərimizi inamla reallaşdıracağımıza heç bir şübhə yoxdur", - deyə YAP Sədrinin müavini əlavə edib.

AK Parti Sədrinin Xarici əlaqələr üzrə müavini, TBMM-in üzvü Zafer Sırakaya Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, Azərbaycan ilə Türkiyənin dost və qardaş ölkələr kimi daim bir-birinin yanında olduğunu, strateji müttəfiqlik münasibətlərindən irəli gələrək çoxşaxəli işbirliyini dərinləşdirdiyini qeyd edib. Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsini tarixi nailiyyət kimi xarakterizə edən Zafer Sırakaya hazırkı geostrateji reallıqların yeni çağırışlar yaratdığını və ölkələrimizin birgə təşəbbüsləri ilə görülən işlər nəticəsində milli maraqlarımızın uğurla təmin edildiyini vurğulayıb.

O, "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilən ikinci beynəlxalq konfransın önəminə diqqəti cəlb edərək Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıdışı məsələsinin beynəlxalq hüququn təməl prinsiplərinə əsaslandığını bildirib. Zafer Sırakaya 51 ölkədən 100-dən çox nümayəndənin iştirak etdiyi beynəlxalq konfransın tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün çox önəmli platforma olduğunu bildirib.

AK Partinin Yeni Azərbaycan Partiyası ilə işbirliyinə böyük əhəmiyyət verdiyini xüsusi vurğulayan Z.Sırakaya qarşılıqlı səfərlər çərçivəsində keçirilən görüşlərin ikitərəfli münasibətlərin inkişafı baxımından önəminə diqqəti cəlb edib.

Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım isə iki qardaş ölkə arasında münasibətlərin yüksələn xətt üzrə inkişafının böyük məmnunluq doğurduğunu qeyd edib. O, Azərbaycan və Türkiyənin regionda sülh, sabitlik və inkişaf tərəfdarı olduğunu vurğulayıb. Şamil Ayrım iki ölkə arasında müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın genişləndirilməsində həm parlamentlər, həm də hakim partiyalar arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını diqqətə çatdırıb.

Azərbaycanın beynəlxalq müstəvidə təşəbbüslərinin təqdirəlayiq olduğunu bildirən Şamil Ayrım ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a uğurla ev sahibliyi etdiyini xüsusi vurğulayıb. O, COP29 çərçivəsində qəbul olunan qərarların əhəmiyyətinə nəzər salaraq bu prosesi Azərbaycanın qlobal iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə müstəsna töhfəsi kimi dəyərləndirib.

Şamil Ayrım qeyd edib ki, Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdışı məsələsi beynəlxalq hüququn tələbi kimi dünya ictimaiyyətinin xüsusi diqqət mərkəzində olmalıdır: "Paytaxt Bakıda qayıdış hüququ ilə əlaqədar keçirilən beynəlxalq konfrans tarixi faktların və mövcud reallıqların dünyaya çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir", - deyə o əlavə edib.

AK Parti Xarici Əlaqələr Departamentinin Sədr müavini İbrahim Halil Korkmaz, Beynəlxalq Demokratlar Birliyinin sədri Cengiz Aygör və TBMM-in protokol əməkdaşı Türker Yenerin də iştirak etdiyi görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.




# Azərbaycan və Gürcüstan arasında regional təhlükəsizlik məsələləri müzakirə edilib



Dekabrın 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 31-ci iclasında iştirakı çərçivəsində Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili ilə görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə iki ölkə arasında mövcud strateji tərəfdaşlıq və dostluq münasibətlərinin müxtəlif aspektləri, habelə regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov, həmkarını Gürcüstanın xarici işlər naziri vəzifəsinə təyinatı münasibətilə bir daha təbrik edib, fəaliyyəti dövründə uğurlar arzu edib. Tərəflər ölkələrimiz arasında beynəlxalq hüququn norma və prinsipləri, xüsusilə ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət və dostluğa əsaslanan strateji tərəfdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

Siyasi məsləhətləşmələr mexanizmindən istifadənin əməkdaşlığın regional və beynəlxalq platformalar çərçivəsində inkişafına mümkün töhfələri qeyd olunub.

İkitərəfli münasibətlərin iqtisadi, müqavilə-hüquq, humanitar və enerji aspektlərinin inkişafının əhəmiyyəti qeyd olunub, birgə strateji layihələrin vacibliyi diqqətə çatdırılıb. Azərbaycan Respublikası və Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov ölkəmizin sədrlik etdiyi və bölgəmizdə ilk dəfə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yekunları barədə həmkarını məlumatlandırıb. Milli səviyyədə yaşıl enerjinin inkişaf etdirilməsi sahəsində beynəlxalq səylərini bundan sonra da davam etdirəcəyi və bu istiqamətdə Gürcüstan ilə birgə əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyəti qeyd olunub.

Qarşı tərəf, həmçinin postmünaqişə dövründə regional bərpa, quruculuq və sülh səyləri barədə ətraflı məlumatlandırılıb, bölgədə dayanıqlı sülh quruculuğuna ən böyük təhdid kimi Ermənistanın qonşu dövlətlərə olan ərazi iddialarının mövcudluğu vurğulanıb. Görüşdə, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Gələcəyimizin təminatçıları!

## Prezident İlham Əliyev: "Yer üzündə bütün uşaqların sağlam və təmiz dünyaya, yaşıl gələcəyə ehtiyacı var və onlar buna layiqdirlər"

"Uşaqlar cəmiyyətin sabahıdır. Bizim üzərimizə düşən əsas vəzifə onlara aydın səma altında etibarlı gələcək bəxş etməkdir. Ölkəmizdə uşaqlara hərtərəfli qayğının dövlət siyasətinin tərkib hissəsi olması Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Bu istiqamətdə bir sıra mühüm işlər görülmüş və görülməkdədir. Uşaqlarımız yüksək təhsil almaq, bacarıqlarını inkişaf etdirmək və istedadlarını üzə çıxara bilmək üçün hər cür imkana malikdirlər". Bu fikirlər Prezident İlham Əliyevin Azərbaycan Uşaqlarının VI Ümumrespublika Forumunun iştirakçılarına müraciətində yer alıb. Dövlətimizin başçısı qeyd edib ki, bu Forumun ənənəvi şəkil alması Azərbaycanda uşaq hüquqlarına diqqətin bariz təzahürlərindəndir. "Builki Forum "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilir. Onun həsr olunduğu uşaqlar və ekologiya mövzusu aktuallığı ilə seçilir və övladlarımızın təhlükəsiz ətraf mühitdə yaşamaları baxımından xüsusi məna daşıyır. Bu yaxınlarda Azərbaycan nəhəng miqyaslı beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti 29-cu sessiyasına ev sahibliyi etdi. Konfransda ətraf mühit amillərinin uşaqların sağlamlığına təsiri, uşaqlar naminə iqlim fəaliyyətinin gücləndirilməsi məsələləri geniş müzakirə olundu. Çünki Yer üzündə bütün uşaqların sağlam və təmiz dünyaya, yaşıl gələcəyə ehtiyacı var və onlar buna layiqdirlər", - deyə Azərbaycan Prezidenti müraciətində vurğulayıb.

İqlim dəyişiklikləri ilə bağlı qlobal səviyyədə xəstəliklərin 88 faizi beş yaşından aşağı uşaqların payına düşür. Daşqınlar və kəskin hava şəraiti uşaqların təhsilə çıxışını məhdudlaşdırır, onların məktəbə getmələrində maneələr yaradır. Bunu nəzərə almaq olduqca vacibdir. Gənc qızların təhsillə təmin edilməsi və erkən yaşlardan bu sahəyə sərmayə qoyulması böyük əhəmiyyət daşıyır.

### UŞAQ HÜQUQLARININ ETİBARLI TƏMİNATI

Bu gün dünyanı narahat edən qlobal problemlərdən biri iqlim dəyişmələri və onun ətraf mühitə mənfi təsirləridir. Son illər iqlim dəyişmələrinin təsiri ilə bağlı planetimizdə təbii fəlakətlərin sayı xeyli artıb. Dünyanın bir sıra ölkələrində baş verən sel və daşqınlar, torpaq sürüşmələri və digər təbiət hadisələrinin coğrafiyası ildən-ilə genişlənməkdədir. Bu da insan sağlamlığına və ətraf canlı aləmə zərərli təsir göstərməklə yanaşı, iqtisadiyyat və bizneslər üçün də ciddi risklər yaratmaqdadır. Azərbaycan Respublikası iqlim dəyişmələrinə həssas, inkişaf etməkdə olan ölkə, beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələri ilə mübarizəyə öz töhfəsini verir. İqlim dəyişiklikləri uşaqlara birbaşa təsir göstərən amillərdən biridir.

Hər bir ölkənin gələcək inkişafı məhz onun yetişən nəslindən asılıdır. Odur ki, onların sağlam mühitdə böyüməsi, tərbiyə alması üçün dövlətimiz tərəfindən tədbirlər görülür. Bu qayğı sağlam düşüncəli, sağlam ruhlu, sağlam vücudlu insanların yetişməsi ilə yanaşı, onların vətənə bağlı, vətən sevgili vətəndaş kimi böyüməsinə xidmət edir. Təbii ki, yetişən nəslin xalqa bağlı şəkildə böyümələri və formalaşmaları hər bir dövlət üçün prioritet məsələdir. Bütün demokratik dövlətlərdə olduğu kimi, Azərbaycanda da uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Ölkəmizdə müasir uşaqların problemlərinin həlli, onların hüquqlarının qorunması kimi məsələlərin zəruriliyini nəzərə alaraq, əlverişli mənəvi və sosial mühitin yaranması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Uşaqların layiqli vətəndaş kimi yetişmələri, uşaqlarla bağlı sosial problemlərin həlli, uşaq hüquqlarının etibarlı təminatı baxımından dövlət səviyyəsində bütün addımlar atılır.

Azərbaycan müstəqillik dövründə, uşaq hüquqlarının qorunması və cəmiyyətimizin bu sahədə maarifləndirilməsi sahəsində çoxsaylı layihə və proqramlar həyata keçirib. Ümummilli Lider Heydər Əliyevin 1998-ci il avqustun 24-də "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun təsdiqi ilə bağlı imzaladığı Fərmanı uşaqların hüquq bərabərliyi, vicdan, söz və məlumat azadlığı, yaşamaq və inkişaf etmək, tərbiyə almaq, şərəf və ləyaqətinin müdafiəsi hüquqlarının təmin olunmasında böyük əhəmiyyətə malikdir. Bu sənəd cəmiyyətdə uşaqların müdafiəsinə və onların inkişafına xüsusi təkan oldu.

Ulu Öndər Heydər Əliyevin ideyaları əsas götürülərək, müasir dövrdə uşaq və gənclərin vətəndaşlıq, vətənpərvərlik və mənəvi-əxlaqi tərbiyə sisteminin hüquqi əsası formalaşdırılmış və normativ mənbə kimi bir sıra proqramlar qəbul edilmişdir.



### VƏTƏNDAŞLIQ VƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ

Uşaq siyasətinə xüsusi diqqət yetirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu sahədə bir sıra uğurlu dövlət proqramları və layihələr reallaşır. Uşaq siyasəti ilə bağlı Prezident İlham Əliyevin Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilib. Qaydalar uşaq sahəsində nəzarətin gücləndirilməsi, müvafiq dövlət orqanlarının uşaq sahəsində fəaliyyətinin əlaqələndirilməsi baxımından, xüsusi əhəmiyyətə malikdir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti" Azərbaycan Respublikası Ailə Məcəlləsinin 51.7-ci maddəsinə uyğun olaraq, uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətinin təşkilini və həyata keçirilməsini tənzimləmişdir. Dövlət nəzarətinin məqsədi uşaqların Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühit yaradılması idi. Eyni zamanda, uşaq hüquqlarının pozulmasına səbəb olan halların qarşısının alınmasında əhəmiyyətli bir sənəddir.

Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləmək və bu sahədə dövlət orqanlarının, müəssisələrin və təşkilatların hüquq və vəzifələrini müəyyən etmək məqsədilə "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Azərbaycan Prezidentinin 2006-cı il martın 29-da təsdiqlədiyi "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Uşaq müəssisələrindəki uşaqların ailələrə verilməsini təmin etmək və onların həmin müəssisələrə verilməsinə şərait yaratmaq diqqətdədir.

Bu gün Ulu Öndər Heydər Əliyevin ideyalarını əməli fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən də genişmiqyaslı tədbirlər həyata keçirilir. Belə ki, Fond xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olan uşaqlara diqqət və qayğı ilə yanaşır. Ölkəmizdə uşaq hüquqlarının təmin olunması, onların istedadının üzə çıxarılması istiqamətində silsilə tədbirlərin keçirilməsinə təkan verir. Fondun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Kor və zəif görən insanların İKT-yə çıxışının təmin edilməsi" layihələri, məhz uşaqların fiziki və mənəvi sağlamlığı, yetkin bir şəkildə formalaşması istiqamətində həyata keçirilir. Fond tərəfindən "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində aparılan əsaslı təmir və yenidənqurma işləri cəmiyyətdə əks-səda yaradıb. Bu gün uşaq və gənclərin mənəvi və əxlaqi, vətəndaşlıq və vətənpərvərlik tərbiyəsi üçün bütün tədbirlər həyata keçirilir. Bundan başqa, onlarda milli mədəniyyətimizə maraq, ümumbəşəri və milli dəyərlərin mənimsənilməsinə olan tələbat, bədii zövq və incəsənətə meyil, cəmiyyət həyatında iştirakın formalaşmasına hərtərəfli yardım göstərilir.

Uşaqların sağlam həyat tərzinin təmin edilməsi, sağlamlıqlarının möhkəmləndirilməsi istiqamətində də ciddi addımlar atılır. Sevindirici haldır ki, ölkəmizdə son illər görülən genişmiqyaslı işlər sırasında ana və uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər mühüm yer tutur. Bu və ya digər tədbirlər bu sahəyə dövlət qayğısının təzahürüdür.

Bütün bunlar, onu deməyə əsas verir ki, Azərbaycan gələcəyin qurucusu olacaq, uşaqların sabahı üçün böyük tədbirlər görür və dünyanın işıqlı sabahını təmin edir.

### ERMƏNİ VƏHŞİLİYİNİN QURBANINA ÇEVRİLƏN UŞAQLAR

Əlbəttə ki, erməni vəhşiliyinin qurbanına çevrilən uşaqları qeyd etməliyik. 44 günlük Vətən müharibəsində biz erməninin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasında xəbər vermirmi? Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini qatili olan erməni. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilər Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub. Vətən müharibəsi dövründə 12 nəfər uşaq həlak olub. Beynəlxalq konvensiyaları pozan ermənilər qanun qarşısında məsuliyyət daşıyırlar.

Bu gün Azərbaycan xalqı qalib xalqdır. Hər qarışına qan axıdılan müqəddəs torpaqlarımız azad nəfəs alır. Bu torpağın gələcək qurucuları bu günün məsum uşaqlarıdır.

### "XOŞBƏXTSİNİZ Kİ, PARLAQ MƏDƏNİYYƏT YARATMIŞ QƏDİM VƏ BÖYÜK BİR XALQIN ÖVLADLARISINIZ"

Qeyd edək ki, Ümumrespublika Uşaq Forumları uşaqların öz hüquqlarına dair qərarların qəbul olunmasında iştirakını təmin etmək, onlara problemlərinin həlli ilə bağlı təşəbbüslər irəli sürmək və təkliflər vermək imkanı yaratmaq, ictimaiyyətin diqqətini uşaq hüquqlarının qorunmasına yönəltmək baxımından əhəmiyyətlidir. Keçirilən forumların əsas xüsusiyyəti və fərqləndirici cəhəti onu bütünlüklə uşaqların idarə etməsidir.

"Siz müstəqillik salnaməmizə şanlı səhifələrin yazıldığı günlərin şahidi olan ən yeni nəsli burada təmsil edirsiniz. Sizin şəxsinizdə Azərbaycan uşaqlarının hamısına üz tutub deyirəm: xoşbəxtsiniz ki, parlaq mədəniyyət yaratmış qədim və böyük bir xalqın övladlarısınız. Siz həm də gələcəyimizin təminatısınız. Qüdrətli Azərbaycanı məhz sizə əmanət edəcəyik. Siz bizim üçün çox dəyərlisiniz. İnanıram ki, Forum çərçivəsində aparacağınız əhatəli fikir mübadiləsi və qəbul edəcəyiniz qərarlar uşaqlarla bağlı dövlət siyasətimizin bundan sonra da uğurla gerçəkləşdirilməsi işinə öz töhfəsini verəcəkdir", - deyə Prezident müraciətində bildirib.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Radiatorda paltar qurutmağın DƏHŞƏTLİ FƏSADLARI

***Bir çox insanlar paltarları qızdırıcıda qurutmağın quruducu və ya paltar ipindən istifadə etməkdən daha sürətli və sərfəli olduğuna inansalar da, bu, əslində evinizə düşündüyünüzdən də baha başa gələ bilər. Bəs, bu zərərlər hansılardır?***

SİA mövzu ilə bağlı araşdırma aparıb. Qızdırıcının üstündən asılmış geyimlər, intensiv buxarlanma səbəbindən otağın oksigen və rütubət balansına mənfi təsir göstərir. Bu, aşağı tənəffüs yollarında qıcıqlanmaya, uzun müddət davamlı quru öskürəyə səbəb ola bilər. Həmçinin, quru və çirkli havada nəfəs almağa da şərait yaradır.

Paltarlarınızı qurutmaq üçün radiatordan istifadə etmək bu qış verəcəyiniz ən müdrik qərar olmaya bilər. Geyimləri radiatorda qurutmaq ilk baxışda zərərsiz görünsə də, səhv qərar vermiş ola bilərsiniz. Mütəxəssislərin fikrincə, paltarların radiatorlarda qurudulması havada rütubətin artmasına səbəb olur ki, bu da rütubətə və kif əmələ gəlməsinə səbəb









olur. Bu artan rütubət sağlamlıq risklərinə səbəb ola bilər. Bu üsul həm də enerji istehlakının artması səbəbindən enerji xərclərinizi əhəmiyyətli dərəcədə artıracaq.

**Rütubət və kif riski:** Otaqda asılmış geyimlər ətraf mühitin rütubət səviyyəsini artırır və uzun müddətdə divarlarda və ya tavanda kif əmələ gəlməsinə səbəb ola bilər.

**Radiatorların məhsuldarlığının azaldılması:** Paltarlar radiatorda olduqda, istiliyin otağa yayılmasının qarşısı alına bilər ki, bu da istilik səmərəliliyini azaldır.

**Sağlamlıq problemləri:** Yüksək rütubət tənəffüs problemlərinə, xüsusən də astma və ya allergiyaya səbəb ola bilər.

**Radiatorların zədələnməsi:** Radiatorda daim nəmlənmiş çamaşırlar metal səthlərdə pas və ya boya qabarmasına səbəb ola bilər.



## Qızdırıcılara su qoyulmasının zərərləri

**Rütubət balansını poza bilər:** Lazım olduğundan daha çox su əlavə etmək otaqda həddindən artıq rütubətə səbəb ola bilər. Bu, divarlarda kif və göbələklərin inkişafına şərait yaradır.

**Radiatorlara zərər verə bilər:** Metal səthlə birbaşa təmasda olan su qabı radiatorların boyasına və ya səthinə zərər verə və zamanla paslanmaya səbəb ola bilər.

## Qeyri-kafi və ya balanssız rütubət:

Sadəcə radiatorun üzərinə su qoymaq otağın bütün sahəsini bərabər şəkildə nəmləndirməyə bilər. Günlərin qısaldığı və günəşin təsirinin azaldığı qış günlərində geyimlərin qurudulması üçün daha yaradıcı həllər tapmaq lazımdır.

## Paltarları qışda qurutmağın ən asan yolu quruducudur

Paltar qurutma maşınları soyuq qış vaxtlarında çamaşırlarınızı qurutmağın ən sürətli yollarından biridir. Xüsusən də böyük bir ailəniz varsa və camaşırxana sıxlığı varsa, qurutma maşını bütün problemlərinizi həll edə bilər. Qurutma maşınları geyimlərinizi təxminən 30 dəqiqə ərzində qurudur və bununla da vaxta qənaət edir.



## Qış günəşinin təsirindən faydalanın

Soyuq havada paltarlarınızı tez qurutmaq istəyirsinizsə, səhər günəşindən maksimum fayda əldə etməlisiniz. Qışda hava adətən buludlu olur, lakin hava proqnozunu yoxlayaraq, günəşli günlərə uyğun paltaryuyan proqramınızı tənzimləyə bilə, beləliklə günəşi tuta bilərsiniz. Qış günəşi olsa belə, günəşə məruz qalan geyimləriniz daha tez quruyar. Günəşdən daha çox faydalanmaq üçün paltarları səhər tezdən asın və gün ərzində istiliyi udmasına icazə verin.

## Paltar ipindən istifadə edin

Qışda geyimləri daha tez qurutmağın yollarından biri paltar ipindən istifadə etməkdir. Bu iplər bir neçə cərgədə tapıla bilər və onların uzunluğu evdən evə dəyişir. Paltar ipindən istifadə edə bilsəniz, paltarlarınızı orada qurutmaq daha az vaxt apara bilər.

## Geyimlərinizi asılqanlardan istifadə edərək daha tez qurutun

Paltarlarınızı asılqanlarınızla qurutmağa çalışmısınız? Asılqandan asdığınız geyimlər o qədər qırışmayacaq və quruması daha az vaxt aparacaq.

*Ayşən Vəli*

# Sosial şəbəkələr: belə getsə, məhv edəcək!

***Bu gün həyatımızı sosial şəbəkəsiz düşünmək mümkün deyil. Çünki illərdir ki, bu sistem gündəlik həyatımızın bir parçasına çevrilib. Artıq yaşlı, cavan, uşaq, fərq etməz, onların hər biri günün çox saatını sosial şəbəkələrdə keçirir. Bununla da həm sağlamlıq, həm də mənəvi cəhətdən təhlükə ilə üz-üzə qalmış olurlar.***

Sosial şəbəkələr əslində lazım olduqca və ya təyinatı üzrə istifadə edilərsə, səmərəli nəticə verə bilər. Lakin çox təəssüf ki, sosial platformalardan istifadə bu gün cəmiyyətimizdə xəstəlik vəziyyətinə gəlib. Vaxtaşırı, maneəsiz, sistemsiz istifadə asılılıq yaradıb. Odur ki, insanlar özlərini sosial şəbəkələrdən ayrı təsəvvür edə bilmir. Bəs bu, nə ilə nəticələnir? Təəssüf ki, nəticələr o qədər qorxunc vəziyyətə gəlib ki, artıq həyəcan siqnalı verilməlidir, əks təqdirdə xüsusilə uşaq, yeniyetmə və gənclərimiz məhvə doğru gedir. Bu gün sosial şəbəkələrdən düzgün istifadə edilməməsindən danışaq. Danışaq ki, bəlkə eşidən olar və bunun qarşısının alınması üçün hər hansı addım atılar.




## Nəzarət olmayan yerdə

Söz yox ki, övladlarımıza nəzarət etmədiyimiz təqdirdə onlar istənilən səhvi edə bilər. Lakin sosial şəbəkələr bu gün elə bir vəziyyətə gəlib çıxıb, hər kəs üçün o qədər əlçatan olub ki, artıq onun qarşısında hər hansı nəzarət mexanizmi zəif qalır. Valideynlərin nəzarət etməsi isə o səbəbdən azalıb ki, onların özü də günün çox saatını sosial şəbəkələrdə keçirir, seriallar izləyir. Odur ki, necə deyərlər, vaxt tapıb övladına nəzarət edə bilmir. Ümumilikdə nəzarət mexanizmindən danışarkən isə onu nəzərə almalıyıq ki, sosial şəbəkələrə müəyyən qadağalar qoyulmalıdır, əks təqdirdə qarşıda gəncləri sosial şəbəkələrə necə qurban verdiyimizi öz gözlərimizlə seyr etməli olacağıq.



Gənclər sosial şəbəkələrdə onlara təklif və təqdim olunan həyatın qurbanı olurlar. Bu platformalarda yaxşı yaşayışa, bahalı maşınlara, dəbdəbəli geyimlərə çağırış hələ həyata yenicə atılmış gənclərin beynini, fikrini və düşüncəsini qarışdırır. Hər kəs o həyatın sahibi olmaq istəyir. Lakin axı nəyinsə sahibi olmağa pillə-pillə çatmaq lazımdır. Sosial şəbəkələr isə bütün bunların tez bir zamanda əldə olunmasına çağırış edir. Beləliklə də gənclərimiz öz düzgün yolu ilə gedə bilmir. Təqdim olunan həyata sahiblənməyə can atır. Nəticədə isə öz doğru yolunu yarıda qoyur, məhvə doğru bir yolçuluğa çıxır. Bu yolçuluqda guya asan qazanc yolu, dəbdəbəli həyat var. Lakin onlar əslində boş çağırışdan, yalandan başqa bir şey deyil. Aldanan gənclər bunu min arşın quyunun dibinə düşərkən anlayır. O zaman isə artıq gec olur.

Sosial şəbəkələr yeniyetmə gənclərin geyimindən tutmuş davranış qaydalarınadək onlara yeni təkliflər verən platformalardır. Bizim gənclərin əksəriyyəti geyimini də, davranışını da oradan öyrənir. Hələ üstəlik bu platformalar onlara utanmaq hissini də unutdurur. Artıq gənc nəslin nümayəndələri bəzən elə hərəkətlər edir, elə geyinir, ictimai yerlərdə elə danışır, ucadan gülür ki, baxdıqca məəttəl qalırsan ki, bunlar bizim cəmiyyətin üzvləridir...

Rəqsini, dostları, rəfiqələri ilə zarafatını, yeyib-içdiyini, biabırçı geyimlərini, nənə-babasını, övladını, səyahətini, süfrəsini çəkib bu şəbəkələrdə paylaşan yüzlərlə gənc var. Müxtəlif effektlərdən istifadə edib öz "gözəlliyini" nümayiş etdirən, hər zaman belə görünməyə çalışan gənc qızlar var. Gündə bir əzasını əməliyyat etdirib video çəkən, dodaqlarını dolğu ilə şişirən, sinəsini, arxasnı böyüdüb özünü sosial şəbəkələrdə reklam edən və bununla üstəlik qürur duyan insanlar var. Düşünürsən ki, bizim yeniyetmə-gənclər beləlirindən nə əxz edə, nə öyrənə bilər? Təəssüf ki, artıq nəzarət mexanizminin bütün bunlara gücü çatmır. Gənc insanlara necə nəzarət etmək olar ki? Telefon əllərində, sosial şəbəkələr də onların içərisində. İstədikləri vaxt orada ola bilir və bütün bu çirkinliklər içərisində məhvə doğru yuvarlanırlar.

Nəzarət belə olmalıdır ki, müəyən yaş qruplarına görə sosial şəbəkələrə giriş qadağan edilməlidir. Artıq Avstraliya parlamenti bununla bağlı qərar müzakirə edib. 16 yaşadək yeniyetmə-gənclərin 2025-ci ildən sosial şəbəkələrdən istifadəsi məhdudlaşdırılacaq. Türkiyədə isə 13 yaşadək uşaq və yeniyetmələrin sosial şəbəkə istifadəsinin məhdudlaşdırılması məsələsi qaldırılıb. Çox yaxşı olar ki, bütün dövlətlər bu addımı atsın. Eləcə də Azərbaycan. Çünki bu, inkaredilməz haldır ki, sosial şəbəkələr gəncləri uçuruma aparır. Bunun qarşısı tez bir zamanda alınmasa, qarşıda nələri görəcəyimiz şübhə doğurmur..



## Uşaqlar gəlir mənbəyi deyillər

Ən dəhşətli hal ondan ibarətdir ki, bu gün çox sayda azyaşlı uşaq sosial şəbəkələrin qurbanına çevrilib. Bu qurbanların müəllifi isə həmin uşaqların valideynləridir. Valideynlər uşaqlarını bu platformalarda gəlir mənbəyinə çevirib. Kimi uşağının rəqsini, kimi şirin-şirin danışmasını, kimi onun söyüşünü ( hansı ki, bunu da valideynlər, nənə-babalar, əmi-dayılar öyrədir uşaqlara), kimi uşağın dərs oxumaq, məktəbə getmək istəməməsini çəkib sosial şəbəkələrdə paylaşır, baxış yığır, pul qazanır. Arada isə uşaqların hüququ tapdanır, pozulur.

Əslində uşaq dünyaya gəldiyi bir gündən etibarən şəxsiyyətdir. Onun icazəsi olmadan heç kim onunla bağlı bir addım ata bilməz. Təəssüf ki, buna anlamayan valideynlər uşaqların dərk etməməsindən, kiçik olmasından istifadə edib onları gəlir mənbəyinə çevirirlər.



Bu kimi hallar qəti şəkildə yolverilməzdir. Uşaqları dünyanın gözü qarşısına atmaq olmaz. Onlardan kim nə cür istifadə edir, bunu düşünən varmı? Gələcəkdə bu uşaqlar həmin videolar üçün necə xəcalət çəkəcək, utanacaq, bunu necə, anlayan varmı? Bu videoları çəkdiyi üçün qarşıda övladlarına cavab verməli olacaq valideynlər var. Lakin onlar bunu düşünmədikləri, anlamadıqları üçün fərqinə belə varmırlar. Amma sabah onlar hökmən uşaqları tərəfindən ittiham olunacaq. "Nə üçün çəkmisiniz", "niyə paylaşmısınız" suallarına cavab verməli olacaqlar.

Uşaqlar heç bir halda gəlir mənbəyinə çevrilə bilməz. Onlara gözəlik filtrləri tətbiq etməklə biz onları təhqir etmiş, psixologiyalarını pozmuş oluruq. Sabah bir qədər özlərini anlayandan sonra hər birinin "barbi" gəlinciklərə oxşamaq istəyinə biz özümüz yol açırıq. Güzgüdə də özlərini bizim paylaşdığımız foto və videolardakı kimi görmək arzularını biz onlarda yaradırıq. Sonra da deyirik ki, uşaqlarımızda bu istəklər haradan qaynaqlanır...

## Gözəllik filtrləri-ideal gözəllik xəstəliyi

Bu gün sosial şəbəkələrdə yayılan və insanları psixoloji təzyiq və təsir altında saxlayan vasitələrdən biri də müxtəlif gözəllik filtrlərindən istifadə olunmasıdır. Bunu orta və gənc nəslin nümayəndələri tətbiq edir. Ümumiyyətlə, bu gün cəmiyyətimizdə xəstəlik halına çevrilən belə bir məsələ var ki, artıq əksər insan öz foto və videolarını əslində olduğu kimi qəbul edə bilmir. Bu səbəbdən də o cür paylaşmır. Onlara müxtəlif şəbəkələrə məxsus gözəllik filtrlərindən istifadə etməklə yeni "həyat" verir və sonra paylaşır. Bu da təbii ki, minlərlə sosial şəbəkə iştirakçısı tərəfindən birmənalı qarşılanmır. Hər xarakterdə insanların olduğunu nəzərə alsaq, bu, psixoloji gərginlik yaradan bir vasitədir. Çünki xüsusilə gənc qızların hər biri belə gözəl görünmək istəyir. Eyni zamanda həm də bu gözəlliklə onları hamının görməsini arzulayır. Beləliklə də sosial şəbəkələr bu gün bir-birinə bənzəyən yüzlərlə gənc qız fotosu ilə doludur.

Və bu filtrlərin ən dəhşətli tərəfi ondan ibarətdir ki, qızlar özlərini həyatda da həmin gözəllikdə görmək istəyir və hələ 20 yaşı tamam olmamış minlərlə qız kosmetoloq yanına gedərək dodaqlarını, sinə və arxalarını böyütdürür, qaşlarını dartdırır, gözlərini çeyran gözünə oxşadır. Üzündə xoşuna gəlməyən yerlərə dolğu vurdurur, burun əməliyyatı etdirir.

Beləliklə, bu gözəllik filtrləri cəmiyyətlərdə psixoloji vəziyyətin dəyişməsinə, çoxsaylı gəncin ağıl xəstəsi olmasına şərait yaradır. İndi hara baxırsansa, bir-birinə bənzəyən qızları görə bilirsən. Bax, bu, gözəllik filtrlərinin övladlarımıza "töhfəsidir". Bəs bütün bunların gənclərin sağlamlığına təsiri necədir? Təbii ki, çox pisdir. Bu, həm psixoloji, həm də ümumi sağlamlığa zərbədir. "TikTok" platforması yetkinlik yaşına çatmayan istifadəçilərin psixoloji rifahını qorumaq məqsədilə video çəkilişi zamanı gözəllik filtrlərindən istifadəyə qadağa qoymağı planlaşdırır. Bu şəbəkə planını reallaşdıra bilərsə, çox gözəl nəticə əldə olunar. Lakin rellaşdırarsa...

## Sosial şəbəkələrlə bağlı qərar verilməlidir

Artıq sosial şəbəkələr o həddə gəlib ki, insanların mənəviyyatına, əxlaqına da ciddi şəkildə zərbə vurur. İradəsi bir qədər zəif, utanması bir qədər az olan insanlar burada elə paylaşımlar edir ki, gözlülər olsun, görməsin. Kim nə istəyirsə, onu danışa, çəkə, göstərə bilir. Sanki sosial şəbəkələr hər kəsin şəxsi tribunasıdır. Oradan necə danışacağına, nə söyləyəcəyinə yalnız özü icazə, qərar verə bilər.

Bütün bunlar isə Azərbaycan cəmiyyəti olaraq bizim mentalitetə, ənənələrə uyğun gəlmir. Əsrlər boyu qoruyub bu günlərə gətirdiyimiz dəyərlərimiz bu platformalarda itirilməkdədir.

Həyatımıza nəzər salsaq, dəyişikliyə məruz qalmayan az şey görmüş olarıq. Bu az qalanların da itirilənlərin ardınca getməsini istəmiriksə, sosial şəbəkələrlə bağlı bir qərar verilməlidir. Özünü hələ dərk etməyən, tanımayan uşaq, yeniyetmə və müəyyən yaşa qədər gənclərin sosial şəbəkə istifadəsi məhdudlaşdırılmalıdır. Valideynlərə cərimə tətbiq olunmalıdır ki, uşaqları sosial şəbəkə qurbanı etməsinlər.



Uşaq, yeniyetmə, gənc, orta nəslin nümayəndələri, yaşlı insanlar, hər kəs bu platformalarda günün əksər saatını keçirir. Vacib olan məsələlər bir kənarda qalıb, sosial platformalar bütün vaciblərin yerinə keçib. Həyatımızı öz təsiri altına salıb. Utanmaq, çəkinmək, arı, böyük-kiçik yerini, böyüyə hörmət hissini, ölüyə-diriyə dəyəri, bir-birimizə sayğını gündən-günə yoxa çıxarır.

Biz sosial şəbəkələrin görünür ki, yaxşıdan çox pis tərəflərindən istifadəyə üstünlük vermişik. Yoxsa onların o qədər müsbət cəhətləri var ki... İndi ki, müsbətdən çox mənfiyə meyilliyik və özümüzü bu platformalarda gülünc hala salır, ailəmizin sirrini, uşağımızı, gəlin-qayınana münasibətlərini burada müzakirə edir, hər kəsə göstəririksə, bizə ar olsun. Heç olmasa, uşaq-yeniyetmələr ardıcıllarımız olmasın deyə hökmən onlar üçün sosial şəbəkələr məhdudlaşdırılmalıdır. Əks təqdirdə onlar məhvə doğru gedir. Qarşıda görünən böyük bir uçurum var. Övladlarımız o uçurumun bir addımlığına çatıb. Lakin geri dönüş ola bilər: bu isə bizim onları geriyə səsləməyimizdir.

***Mətanət Məmmədova***

# Ermənistanın KTMT-dən Azərbaycana qarşı istifadə planları alınmadı

***Belə bir fikir var ki, Rusiya Ermənistanı KTMT ilə əməkdaşlığı davam etdirməyə inandırmağa çalışır. Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib ki, Moskva Ermənistanın müstəqil kursuna hörmətlə yanaşır. Eyni zamanda, o xatırladıb ki, respublika KTMT-nin üzvü olaraq qalır, ona görə də təşkilatın keçirdiyi bütün tədbirlər üçün qapılar açıqdır. "Ermənistanın KTMT-yə fiziki olaraq qayıtması üçün qapılar açıqdır və biz ümid edirik ki, erməni nümayəndələri gec-tez bu təşkilat çərçivəsində əməkdaşlığı bərpa edəcəklər",- deyə prezidentin köməkçisi TASS-a bildirib.***

Uşakov əmin edib ki, Rusiya Ermənistanın öz kursunu müstəqil müəyyən etmək hüququnu şübhə altına almır. O, ölkənin KTMT-nin tamhüquqlu üzvü olaraq qaldığını və "bütün müvafiq hüquq və öhdəlikləri" özündə saxladığını açıqlayıb.

Rusiya prezidenti Vladimir Putin noyabrın 28-də Astanada bildirib ki, "KTMT Qarabağda İrəvan uğrunda döyüşməməli idi, çünki bu halda Ermənistana qarşı heç bir xarici təcavüz olmayıb". Rusiya prezidenti Ermənistanın KTMT-də tam ştatlı işə qayıdacağını da etiraf edib. O qeyd edib ki, Ermənistan hələ KTMT-dən çıxdığını elan etməyib və










təşkilatın sammitinin bütün sənədlərini dəstəkləyir.

"Düşünürəm ki, Ermənistanla KTMT arasında mövcud vəziyyəti çox güman ki, onun daxili siyasi vəziyyəti diktə edir.

Ermənistanın bu hərbi bloka üzvlüyünü dondurduğunu açıq şəkildə bəyan etməsindən bir ildən artıq vaxt keçir. Amma görünür, Moskva onun bu təşkilatı həmişəlik tərk etməsini istəməzdi. Maraqlıdır, səbəblər nədir? İrəvanın KTMT-dən çıxacağı təqdirdə, KTMT-nin gələcək bütövlüyü ilə bağlı narahatlıqlar varmı?

Bu sualları KTMT-yə üzv ölkələrin nümayəndələri Caliber.Az-a cavablandırıb. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.

Qazaxstanlı politoloq Kazbek Beysebayev qeyd edir ki, KTMT Moskva üçün geosiyasi və geostrateji əhəmiyyətə malikdir.

"KTMT vasitəsilə ən yaxın qonşuları üzərində nəzarəti saxlamaqda davam edir. Digər üzvlər üçün bu təşkilat daha praktik məna daşıyır. Mərkəzi Asiya regionunda terror təhlükəsi var. Buna görə də Qazaxıstan, Qırğızıstan və Tacikistan üçün KTMT potensial terrorizmlə mübarizə orqanıdır",- ekspert izah edib.

Ermənistana gəlincə, o, deyir ki, o elə ölkələrlə həmsərhəddir ki,onlarla çox da yaxşı münasibətləri yoxdur.

"Din baxımından demək olar ki, bütün qonşular da fərqlidir. Ermənistan üçün zamin ola biləcək yeganə ölkə Rusiyadır. Ona görə də İrəvan KTMT-dən çıxdığını elan edə bilər, lakin, fikrimcə, bu, KTMT-yə üzvlüyün ləğvi ilə bağlı sadəcə olaraq yüksək səslə deyilən sözlərdir. Təhlükəsizlik baxımından Avropa, Fransa və ya ABŞ Ermənistandan çox uzaqdadırlar; Bundan başqa, onların Ermənistanın bəzi qonşuları ilə də çətin münasibətləri var. Düşünürəm ki, bütün bu amillər Yerevanda yaxşı başa düşülür və KTMT-dən çıxmaqla bağlı bütün söhbətlər bəyanat olaraq qalacaq",- Beysebayev əmindir.

Rusiyalı politoloq, Xəzər Strateji Araşdırmalar İnstitutunun eksperti Aleksandr Karavayev qeyd edib ki, 2010-cu illərin ortalarından KTMT faktiki olaraq 3 seqmentə parçalanır.

"Buna müəyyən dərəcədə, təhlükəsizlik məsələlərinə daxil olan üç operativ komandanlıq deyə bilərsiniz. Yəni, bu o demək deyil ki, KTMT daxildə parçalanır, bu, XX əsrin sərt hərbi blokları nöqteyi-nəzərindən standart olmayan, ciddi nizam-intizam, bir çox halda aydın tabeçilik, bir çox mülki və hərbi proqramlar olan konkret təşkilatdır. Necə ki, NATO Qərb dünyasının kollektiv təhlükəsizlik sisteminin standartıdır", - ekspert müqayisə edib. Onun sözlərinə görə, KTMT bu mənada konkret təşkilatdır və heç bir halda Varşava Müqaviləsi Təşkilatının davamçısı deyil.

"Və bu, NATO-nun antaqonisti deyil. O, xüsusi olaraq sırf postsovet regionunda təhlükəsizlik məsələləri üçün yaradılıb və o zaman da elə əvvəldən aydındır ki, keçmiş Sovet İttifaqının bütün ölkələrində deyil. Bu, birinci məqamdır.

İkincisi, mahiyyətcə desək, KTMT bir təşkilat kimi bir çox inkişaf sahələrini nəzərdə tutmur, onlar hazırda həqiqətən tam hüquqlu qarşılıqlı fəaliyyət istiqamətləri kimi həyata keçirilmir. O, sanki böyümə üçün yaradılmışdır və kollektiv təşkilatın və kollektiv qarşılıqlı fəaliyyətin məcburi hərbi proqramları ilə heç bir ciddi əlaqəni nəzərdə tutmur. Yəni mahiyyətcə postsovet məkanında kollektiv nəzarətin bu forması və kollektiv qarşılıqlı fəaliyyət KTMT-yə üzv olan hər bir ölkənin Rusiya ilə ikitərəfli qarşılıqlı fəaliyyətinə əlavədir.

Beləliklə, KTMT üzv ölkələrin Rusiya ilə bilavasitə ikitərəfli əsasda qarşılıqlı əlaqə sistemi üzərində kollektiv üst quruluşdur. Bu, bu strukturun mahiyyətini ortaya qoyur. Yəni bu, heç bir halda NATO-ya, hətta bütün postsovet məkanını əhatə edən təhlükəsizlik strukturuna əks deyil. Bu, müəyyən institusional formadır. Amma bu strukturun hazırlanması prosesində biz coğrafiya və geosiyasətlə bağlı üç istiqamət, üç operativ nəzarət zonası və ya operativ qarşılıqlı əlaqə aldıq.

Və bu zonalar bir-biri ilə üst-üstə düşmür və onların iştirakçıları həmişə eyni vəzifələri yerinə yetirmirlər. Xüsusilə, konkret misalda qeyd edək ki, KTMT-nin qərb məsuliyyət zonası, əslində, hazırda NATO üzvü olan şərq bloku ölkələri ilə hibrid müharibə formatında olan Rusiya və Belarusun qoşalaşmış qarşılıqlı əlaqəsidir. KTMT-nin bu seqmenti başqa məsələlərlə məşğul olan Mərkəzi Asiya KTMT qrupunun qarşılıqlı fəaliyyətinə heç bir şəkildə təsir göstərmir. KTMT Ali Şurasının Astanada keçirilən sammiti zamanı onlar Tacikistan-Əfqanıstan sərhədinin təşkili ilə bağlı uzunmüddətli layihə kimi nəzərdə tutulan və artıq əvvəlki illərdə qoyulmuş proqramı imzalayıblar", - deyə politoloq bildirib.

Onun sözlərinə görə, KTMT-nin üçüncü seqmenti Cənubi Qafqazla bağlıdır- bu, bir dövlət kimi Ermənistan ərazisini əhatə edən təhlükəsizlik zonasında Rusiya və Ermənistan arasında qoşalaşmış qarşılıqlı fəaliyyətdir.

"Bu regiona gəldikdə isə, onun öz problemləri var ki, Azərbaycan ərazisinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olması lap əvvəldən mürəkkəbləşib. Azərbaycan isə KTMT-nin üzvü olmadığına görə əslində Rusiya ilə müttəfiq və deyək ki, tərəfdaşlıq münasibətlərindədir. 2022-ci ildən başlayaraq artıq hüquqi cəhətdən müttəfiq əməkdaşlıq haqqında saziş var. Burada əvvəldən müəyyən bir paradoks var idi ki, Ermənistan Qarabağa nəzarət etmək üçün ekspansionist planlarında Rusiyaya arxalana bilməz, çünki bu, prinsipcə, heç vaxt Rusiyanın öhdəliklərinə daxil deyildi. Ermənistanın özündə bunun ictimai şəkildə necə şərh olunduğu başqa sualdır. Erməni mütəxəssisləri, erməni hərbçilərinin özləri də yaxşı bilirdilər ki, Rusiyanın Azərbaycanın konstitusion ərazisində qanuni maraqlarını həyata keçirməsi prosesinə qarışmaq fikrində deyil.

KTMT-nin Ermənistan qarşısındakı tapşırıqlarının düzgün şərh edilməməsi Paşinyanla hakimiyyətə gələn elitanın təmsil olunduğu Ermənistan rəhbərliyinə KTMT fakturasından sadəcə olaraq Rusiya ilə siyasi sövdələşmələr üçün istifadə etməyə şərait yaratdı. İndi də bu paradoksun inkişafı davam edir.

Sadəcə, İrəvanın özü bundan Moskva ilə siyasi sövdələşmədə istifadə etmək üçün KTMT-nin Ermənistandakı vəzifələri ilə bağlı baxışlarına yenidən baxmaq qərarına gəlib. Yəni, onlar bu vəzifələri dəyişirlər, KTMT-nin bununla heç bir əlaqəsi yoxdur", - mütəxəssis hesab edir. Karavaev qeyd edir ki, çoxlarının sualı var: nəyə görə biz indi Ermənistanı KTMT-nin tərkibində saxlamalıyıq?

"Əgər bu böhran daha da dərinləşsə və ermənilər öz çıxışlarında israr etməkdə davam etsələr və nəticədə getsələr, o zaman



bu boşluğu qaçılmaz olaraq başqa dövlətlər dolduracaq. Nə olduğu aydındır. Hər şeydən əvvəl Fransa və ABŞ-ın və fərdi Amerika proqramlarının artan iştirakı. Bu, əslində, Cənubi Qafqazın bütün təhlükəsizlik arxitekturasına mənfi təsir göstərə bilər. Bu isə ümumi problemdir - təkcə Rusiya üçün deyil, həm də Azərbaycan üçün.

Bu isə dolayısı ilə İrana və hətta Gürcüstana da təsir edir ki, o da prinsipcə, ümumiyyətlə, qərbyönlü vektordadır, Rusiya ilə münasibətləri normallaşdırmağa çalışır. Ermənistanın KTMT-dən çıxması halında yarana biləcək balans və təhlükəsizlik strukturunda baş verə biləcək bu dəyişiklik regionda yaranan kövrək kompromisləri çox ciddi şəkildə pozacaq.

Moskva və KTMT rəsmiləri Ermənistandan göndərilən bu hədələri və hər cür spekulyativ fikirləri eşitməməyə çalışır, qalmaqallardan qaçmağa çalışırlar. Gözləntilər var ki, zaman keçdikcə bu siyasi tendensiya başqa istiqamətə çevriləcək. Bunun da öz məntiqi var, çünki gec-tez Ermənistanda hakimiyyət dəyişəcək.

Ona görə də Ermənistanın KTMT-nin tərkibində saxlanılması bu baxımdan kifayət qədər vacibdir. Bunun Ermənistana müəyyən üstünlüklərini nümayiş etdirmək üçün təbii ki, siyasi iş lazımdır, siyasi arqumentlər lazımdır", - Karavaev əmindir.

***Tərcümə - Elçin Bayramlı***

# Piter Mixalko yenə də əsas şoumen olaraq səhnədədir

Azərbaycan iqtisadi, siyasi, hərbi cəhətdən gücləndikcə və dünyada mövqeləri daha da möhkəmləndikcə bəzi bəlli dairələr və beynəlxalq təşkilatlar əyinlərinə qara geyinib, qara-qura fikirlərlə çıxış etməklə ölkəmizə qara ləkə atmağa çalışırlar. Bununla öz dayaz ağılları ilə ölkəmizi beynəlxalq aləmin gözündən salacaq, uğurlarına zərbə vuracaqlar. Təəssüflər olsun ki, sapı özümüzdən olan baltalar xarici məkrli dairələrin yanında yer alıb, ölkəmizə qarşı qarayaxma kampaniyasında fəal iştirak edirlər. Bəzən dağıdıcı müxalifət, xaricdən maliyyələşən media təmsilçilər və QHT nümayəndələri ölkəmizə qarşı birgə qara işlərin aparılması üçün ağaları ilə məsləhətləşmələr də aparırlar. Dekabrın 4-də Avropa İttifaqı, Böyük Britaniya və İsveçrənin səfirlikləri Azərbaycanda fəaliyyət göstərən, ancaq onların sözlərini deyən, tapşırıqlarını yerinə yetirən "hüquq müdafiəçi"ləri, vətəndaş cəmiyyəti, mətbuat nümayəndələri, hüquqşünaslar və "ictimai fəallar"ın iştirakı ilə birgə toplantı keçiriblər. Toplantıda çıxış edən İsveçrənin Azərbaycandakı səfiri Tomas Ştelin, Böyük Britaniya səfiri Ferqus Old, ABŞ səfiri Mark Libbi, Avropa İttifaqının Bakıdakı ofisində səfir Piter Mixalko və digərləri Azərbaycan xalqı və dövləti əleyhinə, hakimiyyətin apardığı xeyirli, gərəkli siyasətinə yönəlik fikirlər səsləndiriblər. Aİ, Böyük Britaniya, İsveçrə və ABŞ səfirlərinin uydurmalarına görə, Azərbaycan həbsxanalarında cəza çəkənlərin hamısı günahsızdır və azad olunmalıdırlar. Belə bir ağzıgöyçəklik etməkdə məqsədləri sonra da azadlığa çıxanlara minnət qoyub, özləri üçün qara işlərdə işlətməkdir. Ancaq dərk etmirlər ki, bura azad, demokratik dövlət olan Azərbaycandır. Hər bir məsələ hüquqi yolla tənzimlənir və məhkəmə qaydasında qərarlar verilir. Aİ, Böyük Britaniya, İsveçrə və ABŞ səfirlərinin ağılları Amerikaya gedib. Hansı ki, prezident C.Bayden oturduğu kreslonun imkanlarından sui-istifadə edərək vergidən yayınma, narkotik maddənin təsiri altında odlu silah alması və 3 nəfəri yaralaması, ümumilikdə haqqında 9 maddə üzrə ittiham üzrə məhkəmədə təqsirli bilinən oğlu Hanter Baydeni əfv etdi.

### 9 maddə ilə ittiham olunan oğlunu əfv etməklə Bayden ABŞ-da qanunların şah deyil, şahın (prezidentin) qanun olduğunu dünyaya nümayiş etdirdi

Hanter Baydendə əfv qərarına münasibət bildirərkən, gülə -gülə "atam prezident olaraq məni əfv etməsə idi, ondan inciyə və ələqələrimi kəsə bilərdim",- deyə söyləyir. Bununla da Amerika Birləşmiş Ştatlarında qanunların şah deyil, prezident C.Baydenin qanun olduğunu bütün dünyaya nümayiş etdirdi. Belə bir biabırçı durumda olan və özlərinə məxsus demokratiya ilə çıxış edən dövlətin Azərbaycandakı təmsilçisi bizlərə söz və mətbuat azadlığından, insan hüquqlarının müdafiəsindən fars-molla rejiminin bozbaş mollalarısayağı moizələr söyləyir. Hətta utanıb-çəkinmədən, bir növ həyasızcasına ABŞ-ın Azərbaycandakı səfiri Mark Libbi yanıqlı köks ötürərək deyir ki, budəfəki toplantımızda insan hüquqları və söz azadlığı uğrunda mübarizədən danışanların bir çoxu bugünkü tədbirdə iştirak edə bilmirlər. Tədbirdə iştirak edən Azərbaycanda doğumlu olan və azərbaycanlı adına iddia edən "hüquq müdafiəçi"ləri, vətəndaş cəmiyyəti, mətbuat nümayəndələri, hüquqşünaslar və "ictimai fəallar" ağızlarını açıb, gözlərini döyədöyə onun moizələrinə qulaq asıblar. Birinin cəsarəti olmur ki, Baydenin öz oğlunu əfv etməsi rüsvayçılığını ABŞ-ın Azərbaycandakı səfiri Mark Libbin başına vursun. Belə bir cəsarət nümunəsinin ortaya qoyulmaması onların bu və digər formada xarici anti-Azərbaycan dairələrindən maddi və mənəvi cəhətdən asılı olmaları ilə bağlıdır. Ümumiyyətlə görünən ondan ibarətdir ki, tez-tez təşkil olunan bu tip görüşlərdə əsas mözvu Azərbaycanın uğurlarına kögə salmaq olub. Bir qədər əvvəl, yəni avqustun 12-də Avropa İttifaqının Bakıdakı ofisində səfir Piter Mixalko, ofisin bəzi əməkdaşları və Aİ-yə daxil olan ölkələrin Azərbaycandakı səfirlərinin iştirakı ilə AXCP sədri Əli Kərimli, Musavat Partiyasının sabiq və indiki sədrləri İsa Qəmbər və Arif Hacılı, həmçinin müxalifəti təmsil edən daha bir neçə şəxsin iştirakı ilə keçirilən görüşdə eyni ilə dekabrın 4-də təşkil edilən və müzakirə olunan məsələlər olub. O zaman səfir Piter Mixalko müxalifətin hazırkı fəaliyyətsizliyi məsələsinə toxunaraq, Avropa İttifaqının Xarici İşlər və Təhlükəsizlik Siyasəti Məsələləri üzrə ali nümayəndəsi Cozef Borrell yaranmış durumdan ciddi narazılığını müxalifət təmsilçilərinin diqqətinə çatdırıb. Azərbaycanın dağıdıcı müxalifətindən və siyasiləşmiş QHT-lərindən fərqli olaraq fəal olduğunu və verilən tapşırıqları lazımı formada icra etdiyini bildirib. Qeyd edib ki, həm Azərbaycana, həm də Gürcüstana ayrılan vəsaitlərin həcmi eyni olsa da, qonşu ölkədə vətəndaş cəmiyyəti hakimiyyətə çox ciddi təsir etmək və iqtidarı sarsıdacaq addımlar atmaq imkanlarına malikdir. Gözükölgəli vəziyyətdə olan Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və digərləri Mixalkonun mövqeyinin haqlı olduğunu bildirərək, qeyd ediblər ki, Aİ tərəfindən irəli sürülən tələblər aydındır və onların yerinə yetirilməsi ilə bağlı lazımi addımlar atılacaq.



### Mixalko dağıdıcı müxalifəti qarşıdurmalar törətməyə təhrik edir

Dekabrın 4-də keçirilən toplantını bir növ avqustun 12-də təşkil edilən görüşdən ötən müddət ərzində görülən işlərin bir hesabatı hesab etmək olar. Çünki tərəflər hər bir ay, hətta həftələr üzrə baş verənlərə fikri bildirib, mövqe ifadə ediblər. Mixalkonun toplantı iştirakçıları qarşısında yeni vəzifələr qoyub, hədələyici formada "Avropa İttifaqı bu halları izləməyə davam edəcək və növbəti toplantıda görülər, həyata keçirilən işlərə baxış olunacaq", - deyə bildirməsi vəziyyətin dağıdıcı müxalifət, eləcə də siyasiləşmiş QHT-lər və əlləri xaricilərin cibində olan jurnalistlər üçün ürəkaçan olmadığını göstərir. Əgər fəaliyyətlərində dəyişiklik etməsələr və tapşırıqları icra etməsələr qarant almaqdan məhrum ediləcəklər. Bu isə onu deməyə əsas verir ki, qarşıdakı günlərdə dağıdıcı müxalifət, siyasiləşmiş QHT-lər və özlərini "ictimai fəallar" kimi təqdim edənlər vəziyyətdən çıxmaq və etimadı doğrultmaq üçün hər cür yaramazlığa gedəcək, eləcə də iğtişaşlar törətməyə, şər və böhtanlarla çıxış etməkdən çəkinməyəcəklər.

***İLHAM ƏLİYEV***

# "Gürcüstanda yeni bir dönəm başlayıb"



"Gürcüstanda baş verən hadisələr əslində Qərbin Cənubi Qafqazda hökmranlıq etmək istəyinin növbəti göstəricisidir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Sahil Kərimli deyib.O bildirib ki, Qərb ölkələri Gürcüstan xalqına, ictimaiyyətinə və Gürcü xalqının iradəsinə açıq hörmətsizlik edir: "Onlar nəyin bahasına olursa-olsun, Gürcüstanda hakimiyyəti əldə saxlamağa Gürcüstan hakimiyyəti dairələrinə təsir imkanlarını qorumağa çalışırlar. Bununla da Cənubi Qafqaz bölgəsində öz maraqlarını təmin etmək istəyirlər. Amma artıq həmin dönəm geridə qalıb, öz gələcəyi, müqəddəratı, Gürcüstan dövlətinin müstəqil siyasət yürütməsi ilə bağlı Qərb ölkələrinin planları artıq işləmir. Çünki Gürcü xalqı parlament seçkilərində böyük iradə nümayiş etdirdi və gələcəyini təmin etmiş oldu. Amma Avropa ölkələri Gürcüstanı qarışdırmaq, Gürcüstanda kütləvi aksiyaları daha da qızışdırmaq üçün, hətta hakimiyyəti devirmək üçün bu cür məkrli və riyakar oyunlar oynamaqda davam edir. Məqsəd Gürcüstanı əldə saxlamaqdan ibarətdir. Gürcüstanı Avropaya inteqrasiya etmək adı altında uzun illər mənfi və təhlükəli meyllər istiqamətində yönəltməyə çalışıblar. Xüsusən də, Gürcü xalqının gənc zümrəsini mənfi meyllərə yönəldərək paralel olaraq qeyri-hökumət təşkilatlarını kütləvi şəkildə maliyyələşdirərək öz istəklərinə nail olmağa çalışıblar. Gürcüstanı əldə saxlamağa cəhd ediblər"."Artıq Gürcüstanda yeni bir dönəm başlayıb. Bu, açıq-aydın görünür. Gürcüstanın yeni hakimiyyəti, yeni parlament artıq Gürcü xalqının, Gürcüstan dövlətinin maraqları çərçivəsində, ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində siyasi iradə ortaya qoyub. Hesab edirəm ki, Qərb ölkələrinin istənilən müdaxilələrinə baxmayaraq Gürcüstanda yeni sağlam hakimiyyət formalaşıb. Bu hakimiyyət Gürcüstanın ərazi bütövlüyünün tam bərpa edilməsi ilə yanaşı həm də Gürcü xalqının müstəqil iradəsinin təmin edilməsi istiqamətində gələcəkdə öz fəaliyyəti istiqamətlərini müəyyən edəcəkdir" - deyə o, əlavə edib.



***Söylü Ağazadə***

# Xətai rayonunda böyük İXTİSAR



Həqiqətən də, isbata ehtiyac yoxdur ki, hər kəs öz yerində olsa, vəzifəsinin nədən ibarət olduğunu anlasa, işinə nəzarət edə bilsə, həyatda əsla problem olmaz. Məsələn, nə yollar üzərindəki piyada keçid zolağı silinib görünməz olar, nə yol kənarında atomobillərin vurub aşırdığı və aylarla yerinə oturmağı gözləyən bardür olar, nə hansı bir iş üçünsə qazılan, lakin günlərlə əvvəlki formasını almağı gözləyən ərazilər olar, nə də Xətai rayonu, Fəzail Bayramov, 1156 küçəsindəki kimi, bir aydan artıqdır, əvvəl aşıb yanı üstə qalan, daha sonra COP29 tədbirinə görə haradasa gizlədilən, o vaxtdan üzə çıxarılmayan keçid nişanı olar... . O nişan ki, onu sürətlə ötən avtomobillərdən biri vurub yerə salmışdı.

Buradan isə hər gün keçən yüzlərlə insan var. Belə ki, yol nişanı 4 ədəd 24 mərtəbəli yaşayış kompleksinə gedən yol üzərindədir. Və həmin keçid nişanı yolda piyada zolağının olduğunu işarə edirdi. Biz vəzifəmizi gözü açıq deyil, gözüyumulu icra etdikcə, iş otaqlarından bayıra çıxmadıqca, bilirsiniz nə baş verir? Hadisə baş verir. Kimi küçədə qazılan quyuya düşür, kiminin ayağı aşıb küçədə qalan bardüra ilişib sınır, kimini ağ keçid üzərində qara günlər gözləyir və sair. Eləcə də piyada yol nişanı, hansı hadisələrə vəsilə olacaq, Allah bilir...

Keçid nişanı aşırılan gündən bir neçə günə kimi elə yerindəcə qalmışdı. Sakinlər gözlədilər, gözlədilər, gəlib onu ayağa qaldıran olmadı, çəkib yaxınlıqdakı hasarın dibinə qoydular ki, əl-ayağa dolaşmasın, buradan keçənlərin ayağının sınmasına səbəb olmasın. COP29-a görə də onu yerinə qaytarmadılar, yəqin ki, gəlib aparıb gizlətdilər, axı bu ərazidə çoxsaylı qonaqlar yaşayırdı. Siz baxın ki, onu yerinə basdırmaqdan daha asan aparmağı məsləhət bildilər. Beləliklə, keçid nişanı birdəfəlik yoxa çıxdı. COP bitdi, lakin keçid nişanı da sanki xaricdən gəlmişdi, qonaqlarla birlikdə Vətəninə qayıtdı.

Burada avtomobil bir nəfəri vurub yerə yıxandan sonra məsələ gündəmə gələcək. Çünki keçid nişanını uzaqdan gələn sürücülərin hər biri görürdü. Məhz ona görə sürətlə gələn avtomobillər burada bir qədər yavaşıyırdı. Lakin indi keçid nişanı olmadığı üçün onların əksəriyyəti nə bilsin ki, burada piyada keçidi var...

Xətai rayonunda bu böyük ixtisarları görəsən hansı qurum həyata keçirir? Maraqlıdır, həm də həyat əhəmiyyətli ixtisarları...

***Mətanət Məmmədova***

# Gəlin-qayınana münasibətləri necə olmalıdır?

Ölkə üzrə dağılan ailələrin əsas boşanma səbəblərinə gəlin-qaynana münasibətlərini misal göstərə bilərik. Bu klassik mövzudan həyatımızda o qədər sıx bəhs olunub ki, haqqında yüzlərlə lətifə və hekayə yaranıb. Bəzən gülüşlə qarşılanan bu problem bir çox hallarda ailənin dağılması və hətta ölümlə də nəticələnir. Xüsusilə gəlin və qaynana eyni evdə yaşayırlarsa, problem daha qabarıq şəkildə özünü göstərir. Gəlin və qayınananın birlikdə yaşamadığı vəziyyətlərdə də tərəflər arasında problemlər yaşanmaqdadır. Bir çox hallarda bu problemlərin mərkəz nöqtəsi evin idarə edilməsi, qarşılıqlı ünsiyyət məsələləri sayılır. "Gəlin mənim süpürgəmdir, haraya qoydum, orda da durmalıdır" kimi ifadəni "Qaynana" filmindən xatırlayırıq. Bu film gəlin-qaynana münasibətlərindəki problemləri özündə əks etdirən ən yaxşı nümunədir. Bəs gəlin-qaynana münasibətlərində problemin əsas səbəbi nədir, münasibətlər əslində necə qurulmalıdır? SİA mövzu ilə bağlı şəhər sakinlərinin fikirlərini öyrənib.



**Şəhər sakini Solmaz Abışova:** "Məncə, gəlin-qayınana arasında çox səmimiyyət la-



zım deyil. Pərdəni saxlamaq lazımdır. Ümumiyyətlə, qayınanadan kənar yaşamaq, ayrı evə çıxmaq daha yaxşıdır. Bir evdə iki ailə olmaz. Mübahisə qayınananın oğluna qısqanclığından yaranır. Ona görə də, problem yaşanır".

**Şəhər sakini Nahidə Babazadə:** "Problem yaranırsa, məncə, qayınananın keçmiş nəsil olması, gəlinin isə daha müasir olma-



sından irəli gəlir. Eyni dam altında yaşayanda istər-istəməz bir-birinin səhvlərini daha çox görürlər, üzlərinə deyə bilmirlər. Ona görə də, içlərində nifrət yaranmağa başlayır. Onun üçün də gəlin və qayınana ayrı yaşasa yaxşıdır".

**Şəhər sakini Leyla Ağabalayeva:** "Münasibət həm qayınanadan, həm də gəlindən asılıdır. Baxır ki, kim necə hərəkət edir. Söhbəti bilmədən demək olmaz ki, problem kim-



dədir, hər ikisində ola bilər. Qaynana süddən çıxmış ağ qaşıq deyil. Qızımın qayınanası da qısqanclıq zəminində problem yaradır. Alınan ətin bir hissəsini kəsib deyirmiş ki, onsuz da, bişirməyəcəksən. Sonra da oğluna deyirmiş ki, gəlin bişirə bilmədi, ona görə də gətirdim. Məncə, gəlin qayınana ilə birlikdə yaşamamalıdır. İndi o zaman da deyil. Ümumiyyətlə, bir evdə iki qadın düz gəlmir. Gəlinin olmasın, qızın, başqa yaxının olsun, fərqi yoxdur. Hər evin öz qadını var və istəyər ki, öz mətbəxinə özü rəhbərlik etsin".

**Şəhər sakini Pənah Məmmədov:** "Mən də yaxınlarda qayınata olacağam. Məncə, heç birində problem yoxdur. Qaynana böyüklük etsə, gəlin də onun sözünə baxar. Gəlin və qaynana uzlaşmalıdır. Gəlin-qaynana birlikdə yaşamalıdır. İndiki zamanda



problem çıxır. Əvvəllər 5 gəlin birlikdə yaşayırdı, problem olmurdu. İndi problemin əsas səbəbi internet ola bilər. Çünki müasir dövrdür, hamı istəyir ki, tək yaşasın, azadlıq olsun. Amma qayınananı da başa düşmək lazımdır. O da istəyir ki, övladının bəhrəsini görsün, gəlin onun qulluğunda dursun. Məncə, problem sudan səbəblərdən yaşanır. Hər ikisi istəsə, yola gedə bilərlər".

**Şəhər sakini Yavər Mirzəliyev:** "Gəlin-qaynana, yaxud da, gəlin-qayınata yaxşı yo-



la getməlidir. Ona görə ki, gəlin bir vətəndaşın qızı, oğlan da bir vətəndaşın oğludur. Problem olarsa, öz aralarında bölüşməlidirlər. Ancaq hörmət və xoş niyyət olmalıdır. Qaynana və qaynatanın gəlinə heç bir maneəsi olmur. Daha da gəlinə kömək edirlər. Uşağa baxırlar, ehtiyacı olanda alıb gətirirlər. Elə insanlar da var ki, qəbul etmirlər, tək yaşamaq istəyirlər. Məsləhət verərdim ki, münasibətləri yaxşı olsun, yaxşı yaşasınlar, bir-birlərini başa düşsünlər".

**Şəhər sakini Həqiqət Şınıxlı:** "Oxu-



duqlarıma, milli-mənəvi dəyərlərdən bildiyimə görə mənə elə gəlir ki, hər bir qadın, qız getdiyi evi öz evi bilməlidir. Qayınana da gələn gəlini öz qızı saymalıdır. Bizdə "yad qızı" sözü var. Əslində evdə böyüyən yad qızıdır. Çünki o evdən yad evə həmin qız köçəcək. Amma gələn o evə gəlir. Gələn o evin qızıdır. Ona görə də, qaynana da gəlinə yaxşı baxmalıdır, gəlin də qayınananı əsl anası kimi qəbul etməlidir. Bu zaman əsl sosiallaşma baş verər. Mənim elə tanıdığım ailələr var ki, illərlə birlikdə yaşayıblar. Hamısı da hörmətlə yaşayıblar, davadalaş olmayıb. Hətta bir damın altında 20 uşaq da yaşayıb. Xoşbəxt də olublar. Bir-birini təhqir etməklə, həyat xoş keçə bilməz. Yaxşı olar ki, bir-birlərini yaxşı qəbul edib, yaxşı da yaşasınlar".

**Şəhər sakini Hənifə Orucova:** "Mən gəlin köçəndə 76-cı illər idi. O vaxt başqa idi, indi tamam başqadır. Gərək hər vaxtın özünə uyğun olsun. Biz 4 gəlin idik, dördümüz



də qaynanama tabe idik. Qayınanamız haqlı-haqsız da olsa onu qəbul etməli idik. İndi özüm qaynanayam. Birinci qızımı, sonra da oğlumu evləndirmişəm. Qızımın problemi olanda narahat olurdum, bir zəngindən ürəyim xarab olurdu. Sonra gəlin gətirdim. Üç gündən sonra dedim ki, qızım, sən daha bu evin sahibisən, mən evdə olmayanda böyüklük sənin əlindədir, nəyi düz bilirsənsə, onu da edərsən. Gəlinimdən də, anasından da razıyam. Mən şadam ki, birinci qızım evlənmişdi. Qızımın narahatlığı olanda mən ipdən asılı qalırdım. Ona görə də, gəlini incitmədim".

***Söylü Ağazadə***



# Məsuliyyətsizlik rejimi

## Yaxud, Fransanın V Respublikası süqut ərəfəsində

***Fransada Mişel Barnye hökumətinə etimadsızlıq səsverməsi prezidentdən tutmuş deputatlara qədər bütün hakimiyyət qollarının nümayəndələrinin məsuliyyətsiz hərəkətlərinin nəticəsidir. Bunu "Le Point" nəşri yazır. İndiki vəziyyət onu göstərir ki, Beşinci Respublikanın əsasları sarsılır. Beşinci Respublika tarixində ilk dəfə deyil ki, hökumətə etimadsızlıq məsələsi üzrə səsvermə onun təşəbbüskarları tərəfindən uğurla başa çatdırılır, lakin indi tamamilə xüsusi bir vəziyyətdir. Beşinci Respublika qurulandan bəri Milli Assambleyada hökumətə təxminən otuz etimadsızlıq səsi verilib. Yalnız biri 5 oktyabr 1962-ci ildə Pompidu hökumətinə qarşı deyil, o vaxta qədər prezidentin ümumxalq səsverməsi ilə seçilməsi üçün referendum layihəsini irəli sürmüş prezident general de Qollun şəxsiyyətinə qarşı yönəldilib. Əlcəzair problemi həll edildikdən sonra 1958-ci il Konstitusiyasının ruhunu dəyişdirən bu böyük islahatla düşmənçilik edən parlament de Qolldan qurtula biləcəyinə qərar verdi.***

2024-cü il dekabrın 5-nə qədər Beşinci Respublika dövründə etimadsızlıq səsverməsinin qəribə taleyi var idi: bir dəfə əksəriyyət nazirlərə etimadsızlıq səsi verdikdə, nəticələr hökumət üçün əlverişli idi. Pompidu istefa verdi, lakin de Qoll onu yenidən baş nazir təyin etdi və dərhal Milli Assambleyanın buraxıldığını elan etdi. Bu, prezidentin ümumxalq səsverməsi ilə seçilməsi məsələsi üzrə oktyabrın 28-də (1962-ci il) keçirilən referendumdan bir qədər əvvəl idi.




Bumeranq effekti ilə səs verin

Həmin referendumda "hə"nin açıq-aşkar qələbəsi Qollistlərə noyabrda keçirilən parlament seçkilərində (1962-ci il) güc verdi. Sonda qalib etimadsızlıq səsverməsi onun təşəbbüskarlarının üzərində bumeranq oldu - onlar seçkilərdə məğlub oldular. Bu gün vəziyyət tamam başqadır. Ən ağır zərbəni hökumət gördü. Artıq ləğvetmə Respublika Prezidenti tərəfindən təhdid oluna və istifadə edilə bilən silah deyil, ona görə də səsvermənin təşəbbüskarları yeni seçki riskindən qorunur. Bu arada Beşinci Respublikanın təməl daşı - çoxluq prinsipi son bir neçə ay ərzində tamamilə məhv edilib. Aşağı palatanın rolunu hökumətin formalaşmasında və fəaliyyətində indi aşkar etmək mümkün deyil.

Deputatların hökumətə etimadsızlıq səsləri yeni seçkilərin keçirilməsini nəzərdə tutmadığı zaman biz birdən Dördüncü Respublika günlərinə qayıdırıq - keçmişə səyahət onsuz da edə bilərdik. Bu qaydanın yalnız bir istisnası var idi - 1955-ci ilin dekabrında, yalnız deputatların diqqətsizliyi səbəbindən (dekabrda keçirilən etimadsızlıq səsverməsindən sonra Milli Assambleyaya 1956-cı il yanvarın 2-də növbədənkənar parlament seçkiləri keçirildi). Ona görə də biz Dördüncü və hətta Üçüncü Respublikanın "məsuliyyətsiz" səslərinə qayıdırıq.




### Deputatlar məsuliyyətsizlik rejimində

Deputatlar keçmişdə təşəbbüs etmək çox asan olan etimadsızlıq səsverməsi prosedurundan sui-istifadə etdikdən sonra Beşinci Respublika həm hökumətin, həm də deputatların vəzifələrini müəyyən edən 49-cu maddə ilə bunun üçün rasional çərçivə yaratdı. "Bu 49-cu məqalə, - tarixçi Frederik Foqaççi xatırlayır, "1956-cı ildə Nazirlər Şurasının sədri və 1958-ci ildə de Qollun ilk hökumətində dövlət naziri olan sosialist Qay Molle ortaya çıxan bu təklifi dəstəklədi. Dördüncü Respublikanın son illərində, sui-istifadələrə son qoymaq və deputatlara onların məsuliyyətini xatırlatmaq məqsədi daşıyan Mişel Debrayı (Beşincinin ilk Baş Naziri) bu tədbirin zəruriliyinə inandırdı. Emmanuel Makron tərəfindən parlamentin buraxılması və nəticədə Milli Assambleyanın tərkibi barədə qərar deputatları Beşinci Respublikanın əsaslarında nəzərdə tutulmayan məsuliyyətsizlik vəziyyətinə gətirib çıxardı.

### Ləğvetmə son zəmanətləri məhv etdi

1958-ci ildən bəri səsverməyə qoyulan otuza yaxın etimadsızlıq səsinin tarixinə nəzər salsaq görərik ki, hökumət, xüsusən də Mişel Rokarın (1988-1991) dövründə bəzən ipdən asılı qalıb. Sosialist baş nazir hökumətin müstəsna məsuliyyətinə dair 49.3-cü maddədən 28 dəfə istifadə edib (maddə hökumətə Milli Assambleyanın təsdiqi olmadan qərarlar qəbul etməyə imkan verir), bu müddət ərzində 5 dəfə etimadsızlıq səsverməsinə başlanılıb. Yalnız bir halda, Rokarın mütləq çoxluq üçün kifayət qədər səsi olmadığı üçün hökumətinin süqutundan qaçmaq üçün öz müşaviri Qay Karkasonnu mərkəzçi səsləri bir-bir toplamaq üçün göndərməli olub. Amma bu, 35 il əvvəl, hökuməti formalaşdıran partiyaların açıq şəkildə strukturlaşdırıldığı, büdcənin qəbul edildiyi, hər dəfə deputatların yeni seçki təhlükəsi ilə üzləşdiyi vaxt idi - çünki Mitteran palatanı buraxa bilərdi - indi bu, artıq belə deyil. Bu da sübutdur ki, Milli Assambleyanın iyunda buraxılması Beşinci Respublikanın sabitliyinin son iki təminatını: etimad və məsuliyyəti məhv etdi.

### Qələbə, yaxud məğlubiyyət kimindir?

Fransada keçirilən seçkilərdə ifrat sağçıların qələbəsindən ən çox faydalananlar Rusiya və İsrail olub. Bu arada Emmanuel Makronun koalisiyası mövqelərini itirib. Bütün bunlar Avropada ciddi tələtümlərə səbəb olub. Hər şey Fransanın ifrat sağının Avropa Parlamenti (AP) seçkilərində görünməmiş uğur qazanması, bütün digər Fransa partiyalarından daha çox yer və səs qazanması ilə başlayıb. Fransada ifrat sağçıların bu qələbəsi vacib olsa da, normal şəraitdə çox şey ifadə etmir, çünki AP seçkiləri daxili seçkilərlə müqayisədə daha az iştirak səviyyəsi və milli siyasətə daha az birbaşa təsir ilə qeyd olunur.

Lakin gözlənilməz nəticələr Fransa prezidenti Emmanuel Makronu gözlənilməz qərar verməyə sövq edəcək qədər əhəmiyyətli oldu. Fransa lideri daha münasib anı gözləməmək yolunu seçdi, ölkədə 2024-cü il iyunun 30-da növbədənkənar parlament seçkilərinin keçirilməsi barədə qərar qəbul etdi. Baş nazir Qabriel Attal kimi əsas müşavirlərlə geniş məsləhətləşmələr aparılmadan qəbul edilən qərar, geniş şəkildə ehtiyatsız addım kimi qiymətləndirildi.

Son nəticədə bu macəra Makronun partiyasına yaxşı nəticə vermədi. Fransada keçirilən parlament seçkilərinin birinci turunda Fransa liderinin koalisiyası 20 faiz səslə üçüncü yeri tutdu. Bu vəziyyət, istər-istəməz ifrat sağçıların siyasi təsirini gücləndirdi. Marin Le Penin Milli Mitinq partiyası ilk turda səslərin 29,24 faizini qazandı və iyulun 7-də keçiriləcək ikinci turda parlamentdə indiyədək görünməmiş sayda mandat qazandı. Bu arada mərkəzçi partiyalar, xüsusilə Makronun "Respublika Naminə Birgə" koalisiyası dağılmaq ərəfəsində idi.

### Bu sürpriz deyil

Faktiki olaraq Fransada mərkəz partiyaları uzun müddətdir ki, səslərini itirirlər. Ölkədə keçirilən son seçkilərin bir çoxunda Fransanın siyasi mənzərəsi seçici seçimlərində ənənəvi siyasi partiyalardan uzaqlaşma ilə yadda qalıb. Məsələn, Şarl de Qollun partiyasının varisi sayılan və ənənəvi hüququ təmsil edən Respublikaçılar partiyası məhv olmaq üzrədir. Bu siyasi qüvvə və onun tərəfdaşları ilk turda cəmi 6,57% səs toplaya bilib.



Prezident Makron administrasiyası Fransada ifrat sağçı ideologiyaların yüksəlişini dolayısı ilə təşviq etməkdə ittiham olunur. Makron 2017-ci ildə seçildikdən sonra qəbul etdiyi yanaşmanın ifrat sağçı ritorikaya legitimlik verdiyinə görə tənqidlə üzləşir. Makronun 2019-cu ildə ifrat sağçı Valeurs Actuelles jurnalına verdiyi və Fransa liderinin miqrasiya, İslam və milli kimlik kimi həssas mövzuları müzakirə etdiyi mübahisəli müsahibəsi bu tendensiyanın ilk xəbərdarlıq əlaməti oldu. Üstəlik, Makronun Gerald Darmanini daxili işlər naziri təyin etməsi, Darmaninin müsəlmanlarla bağlı səs-küylü açıqlamalarını nəzərə alaraq, ifrat sağçı seçiciləri hədəfə aldığı kimi qəbul edilib. İfrat sağçı ideologiyalara doğru qəbul edilən bu keçid 2021-ci ilin fevralında separatizm qanununun qəbulu ilə daha da gücləndi və əhəmiyyətli siyasi dəyişikliklərə işarə etdi.

Üstəlik, Fransanın ifrat sağçıları da televiziya, sosial media, qəzetlər və beyin mərkəzlərində irqçilərin apardıqları mədəniyyət müharibələrini təbliğ etmək üçün güclü və geniş platformalardan istifadə edən Vincent Bollore kimi varlı media maqnatlarından da bu illər ərzində əhəmiyyətli yardım aldılar. Bu təsir Fransada məqbul siyasi diskursun sərhədlərini tədricən dəyişdi və onu daha çox sağçı ideologiyalara yönəltdi.

Beynəlxalq arenada ifrat sağçıların qələbəsindən Rusiya və İsrail yararlanıb. Məsələn, Marin Le Pen çoxdan Kremllə əlaqələndirilir. Xüsusilə Ukrayna münaqişəsinin başlanğıcında Le Penin Rusiya ilə əlaqəsi hətta ictimai rəydə onun imicinə bir qədər xələl gətirdi. 2017-ci ildə verdiyi müsahibədə ifrat sağçı siyasətçi Rusiyanın Krımdakı hərəkətlərini açıq şəkildə dəstəkləyib və onun prezident seçilməsindən Kremlin fayda görəcəyini qeyd edib.

**V.VƏLİYEV**

# Okean və dənizləri məhv etmişik

# SOS

***Okeanlarda plastik çirklənmə ilə bağlı araşdırma aparan bir qrup alim 1979-cu ildən bəri toplanan tullantıların statistikası barədə qeydləri təhlil edib. Bu analizdə okeanlardakı plastik tullantıların sayını təxmin etmək üçün riyazi modelə qeydlər əlavə edilib. Nəticələrə görə, okeanlarda dünyanın təxminən 70 faizini əhatə edən təxminən 171 trilyon plastik-polietilen parçası var. Alimlər xəbərdarlıq edirlər ki, okeanlardakı plastik sıxlığı ilə bağlı heç bir tədbir görülməsə, tullantılar 2040-cı ilə qədər təxminən 3 dəfə arta bilər.***

Araşdırmanın müəllifi 5 Gyres İnstitutunun Dr. Markus Eriksen, 2005-ci ildə okeanları çirkləndirən plastik sayının 16 trilyon olduğu halda, bu rəqəmin 18 il ərzində təqribən 171 trilyona yüksəldiyini bildirir. Eriksen, 2005-ci ildən sonra baş verən ciddi artımı təbiəti qoruma proqramlarına etinasız yanaşılması, həmçinin, indiyədək bu dərəcədə dərin araşdırılma aparılmaması ilə bağlayır.

## Dəniz canlıları plastik yeyir

Hər il təbiətə atılan və əriməsi illərlə vaxt aparan plastiklərin yaratdığı çirklənmə səbəbindən okeanlardakı bir çox heyvan plastiki qida hesab edir, yeyir və mədələri plastiklə dolu olduğu üçün aclıqdan ölürlər. Plastik tullantıların ən çox olduğu okeanlardan biri Atlantik okeanının olduğu təxmin edilir. Problem ilə əlaqədar, açıq dənizlərdə biomüxtəlifliyin qorunması üçün uzun illər davam edən danışıqlardan sonra bu il martın 5-də Birləşmiş Millətlər Təşkilatında razılaşma əldə edilib. Bu müqavilə okeanların 30 faizini qorumaq məqsədi daşıyır. Araşdırmanın nəticələri PLOS ONE elmi jurnalında dərc olunub.

Statistik məlumatlara görə, dünyada hər 1 dəqiqədə 1 milyon polietilen torba zibil qutusuna atılır. Polietilenin çürüyərək yox olması üçün torpaqda 800 il, dənizdə isə 400 il lazım gəlir. Rahat alış-verişin etalonu hesab edilən bu torbaların dənizə atılması bir çox dəniz canlısının mədəsində plastik tullantıların yığılmasına səbəb olur. Çünki okeanda səfərdə olan gəmilər ildə 4 milyon kiloqrama qədər polietilen torbanı dənizə atır. Ekoloqlar deyirlər ki, dünyanın quru səthinin polietilen torba işğalından qurtulmasının səbəbi okean dibinin sellofan torba və plastik qabların qəbiristanlığına çevrilməsidir.

## Vəhşi təbiəti qoruyaq, ya qorumayaq?

Birləşmiş Millətlər Təşkilatı dünya okeanlarını qorumaq üçün tarixi sazişi 10 illik danışıqlardan sonra imzaladı. Açıq Dəniz Müqaviləsi dəniz təbiətini qorumaq və bərpa etmək üçün 2030-cu ilə qədər dənizlərin 30 faizini qorumaq məqsədi daşıyır. Danışıqlar maliyyələşdirmə və balıqçılıq hüquqları ilə bağlı fikir ayrılıqlarına görə illərdir təxirə salınırdı.











BMT-nin Dəniz Hüququ Konvensiyası kimi tanınan okeanların mühafizəsi üzrə sonuncu beynəlxalq saziş 40 il əvvəl 1982-ci ildə imzalanıb. Bu müqavilə bütün ölkələrin balıq tutmaq, gəmiçilik və kəşfiyyat hüququna malik olduğu "açıq dənizlər" adlanan ərazi yaratdı.

Okeanın təqribən üçdə ikisini milli sərhədlərdən kənarda əhatə edən saziş vəhşi təbiəti qorumaq və açıq dənizlərin genetik ehtiyatlarını bölüşmək üçün böyük dəniz mühafizə zonalarının yaradılması üçün hüquqi baza təmin edəcək. Müqavilənin qüvvəyə minməsi üçün 60 ölkə tərəfindən ratifikasiya edilməsi lazımdır.

## İnsan okeanı həm sümürür, həm çirkləndirir

Qeyd edək ki, 1982-ci ildən bəri dənizlərlə bağlı ən mühüm saziş 1982-ci il Birləşmiş Millətlər Təşkilatının Dəniz Hüququ Konvensiyası (UNCLOS) dünya dənizlərinin konstitusiyası kimi qəbul edilirdi. UNCLOS, dövlətlərin suverenliyinin sərhədlərini müəyyən edir, həmçinin açıq dənizlərdə hüquq və vəzifələri müəyyən edir. UNCLOS-a əsasən, dövlətlər kontinental şelf və eksklüziv iqtisadi zona daxilində resurslardan istifadə etmək hüququna malikdirlər.

Açıq dənizdə bütün dövlətlərə resurslara çıxış azadlığı verilir. Eyni zamanda, dövlətlərin dəniz mühitini və dəniz canlı resurslarını qorumaq öhdəliyi var. UNCLOS-un milli suverenlik zonasından kənar ərazilərdə açıq dənizlər və dəniz dibi ilə bağlı müddəaları zamanla müxtəlif saziş və konvensiyalarla işlənib hazırlanıb. Bunlar, ümumiyyətlə, dəniz dibi mədənçilik, balıqçılıq, tullantıların atılması və gəmiçilik fəaliyyətləri ilə bağlıdır. Bununla belə, 1982-ci il konvensiyasına əsasən okeanların yalnız 1 faizi qoruna bilərdi.

## Okeanlar niyə bu qədər vacibdir?

Okeanlar planetin ən böyük istilik qəbuledicisidir. İqlim dəyişikliyinin nəticəsində yaranmış qlobal istiliyin 90 faizini okeanlar udur. Okeanlar həm də çox məhsuldar bir karbon mənbəyidir və antropogen $CO2$ emissiyalarının 23 faizini udur. Həmçinin, bəzi karbon hissəciklərinin min illərdir dəniz dibi çöküntülərində mühafizə edildiyi ehtimal edilsə də, bu məsələ hələ də tam araşdırılmayıb.

IUCN-in məlumatına görə, okeanlardakı bütün canlıların ən azı 10 faizi yox olmaq ərəfəsindədir. Mütəxəssislər bu problemin iki səbəbi olduğunu deyirlər. 1-ci səbəb ekoloji çirklənmə, 2-ci səbəb həddindən artıq balıq ovu olaraq göstərilir. Eyni zamanda, kosmetik və sağlamlıq sahəsində son illər dəniz dibi canlılarından istifadə də çoxalıb. Lakin belə davam etsə, okeanlarda canlı tapmaq olduqca müşkülə çevriləcək.

***Lalə Mehralı***

# Ermənistan müharibə variantına əl atarsa, böyük faciə ilə qarşılaşacaq

***Azərbaycan 2020-ci ilin Vətən müharibəsindən sonra yeni bir istiqamət qazanıb. Artıq proses belə demək mümkündürsə, yeni mərhələyə transformasiya dövrünü yaşayır - Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini təmin edib. Növbəti dövrdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması üçün müzakirələr təşkil olunur. Amma bu müzakirələrin ən mühüm tərəfi ondan ibarətdir ki, əldə olunacaq razılaşma, başqa sözlə, sülh davamlı, hərtərəfli, bütün suallara aydınlıq gətirəcək şəkildə olmalıdır.***



Son vaxtlar Azərbaycanla Ermənistan arasında sülhyaratma prosesində müəyyən müsbət dinamikanın müşahidə edilməsi nikbinlik üçün əsas yaradır. Azərbaycan sülh danışıqlarını ən vacib element olaraq önə çəkir. Cənubi Qafqazda davamlı və etibarlı sülh üçün zəmin yaranmasının vacibliyini ortaya qoyur. Ölkəmizin sülh təşəbbüsləri və onun nəticələri istər regiona, istərsə də regionətrafı coğrafiyaya mühüm üstünlüklər vəd edir. Təsadüfi deyil ki, Bakıda keçirilən COP29 çərçivəsində baş tutmuş bir çox panel iclaslarında ölkəmizin sülhpərvər mövqeyi, regionun iqtisadi inkişafı üçün həyata keçirdiyi strateji yol xəritəsi təqdir olunub.

Azərbaycanın təşəbbüsü ilə meydana çıxan proses 2024-cü il ərzində müəyyən irəliləyişlər əldə etsə də təəssüf ki, konkret olaraq Qərbin Ermənistan üzərindən manipulyasiyalar aparması nəticəsində uğurlu sonluğa çatmır.








Qərbdəki anti-Azərbaycan dairələri yenə də əsassız şəkildə Azərbaycanı hədəfə alır, ölkəmizə qarşı qərəzli münasibətlərini gizlətmirlər. Cənubi Qafqazda sülh prosesinin intensivləşmə fazasına yaxınlaşması yenidən Qərbi "hərəkətə gətirib". İllərdir müxtəlif manipulyasiyalarla Ermənistanın sülhdən yayınmasında əsasl rol oynayan Qərb yenidən distabillik axtarışındadır. Bunun üçün isə müxtəlif variantlardan istifadə olunur.

Nəzərə alaq ki, Qərbin Gürcüstan planlarının "divara" dəyməsi bütünlüklə diqqəti İrəvana yönəltməsi üçün həm də bir vəsilə oldu. Qərb Ermənistanda özünün maraqlarının təmini üçün "vətəndaş cəmiyyəti" qurur, "siyasi partiyalar" formalaşdırır, "ictimai hərəkatlar" yaradır, bir sözlə, Ermənistandakı abhavanı özünün maraqlarına uyğunlaşdırır. Məsələn, son dövrlərdə Fransanın Cənubi Qafqazdakı acı məğlubiyyətləri Ermənistanın sülhə doğru yol alması üçün bir səbəbə çevrilmişdi. Erməni cəmiyyəti anlayırdı ki, Paris müharibə dövründə olduğu kimi, yenidən başvermə ehtimalı yaranan eskalasiyanı yalnız seyr edə bilər - bu baxımdan ölkədəki əhval-ruhiyyə sülh assosasiyası yaradırdı. Qərbin aktivləşməsi, Ermənistanı silah-sursatla təmin etməsi, Avropa ölkələrinin, Hindistanın işğalçını silahlandırması və son olaraq Yunanıstandan S-300 komplekslərinin veriləcəyi xəbərləri isə yenidən təcavüzkar ölkədə revanşizmin "alovlanmasına" yol açıb. Silahlandırma təhriki, yeni müharibəyə hazırlaşmaqla bağlı isterik hal regionda yeni situasiya formalaşdırmaq cəhdidir. Qərb yenidən regionda müharibə vəziyyəti yaratmaqla özünün maraqları uğrunda "savaşa-cağını" bəyan edir...

Qərbin təhriki ilə Hindistandan silah alınması, Yunanıstanın "S300" raket komplekslərini Ermənistana vermək niyyəti Avropa İttifaqının ölkəmizə qarşı düşmən münasibətinin nəticəsidir. Bu silahlanma prosesləri Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə, kövrək sülhün pozulmasına, yeni müharibənin başlanmasına doğru aparır. Ermənistanın yenidən silahlanması, revanşist əhval-ruhiyyənin dəstəklənməsi Cənubi Qafqaz regionunda gərginliyin artmasına xidmət edir. Bu təxribatda heç bir xarici dəstəyə baxmayaraq, Ermənistanın nəinki qalib gəlmək, hətta "öz əlində olanı saxlamaq" şansı yoxdur.

Görünən odur ki, Qərb, xüsusən də Fransa Cənubi Qafqazda Azərbaycanın yaratdığı mövcud reallıqları qəbul etməyə tələsmir. Hər vəchlə sülh prosesinə mane olmağa çalışır, revanşizmə dəstək nümayiş etdirir. Bütün bunlar isə onu göstərir ki, özlərini üzdə "sülh göyərçini" kimi göstərən Qərbin sülh çağırışları səmimi davranış deyil.

Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəsinin İctimai Televiziyasına müsahibəsində "ilin sonunadək Azərbaycanla nə isə bir sənəd imzalayaq" şəklində açıqlama verməsi nə siyasi, nə də hüquqi aspektdən doğru fikir sayıla bilməz. Birinci növbədə, 1991-ci ildən, yəni SSRİ-nin süqutundan sonra Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi iki ölkənin imzalayacağı ilk sənəd kimi tarixə düşəcək. Burada bütün suallar öz cavabını tapmalıdır. Sərhədlərin demarkasiyası və delimitasiyası dəqiq araşdırılmalı və sənəddə əksini tapmalıdır. Qarşıdakı illərdə hər hansı bir iddianın olmayacağına əminlik formalaşdırılmalı və öhdəlik olaraq götürülməli, qondarma iddialardan əl çəkilməli və bu öhdəlik Ermənistanın Azərbaycana qarşı iddialarının əks olunduğu rəsmi sənədlərdən çıxarılmalı, beynəlxalq platformalar üzrə Qarabağ məsələsinin tam bitdiyi elan edilməli. ATƏT-in Minsk qrupunun rəsmən ləğv olunması bəyan edilməli, bölgədə hər hansı bir təhdidin qalmadığına əminlik yaradılmalı və təhlükəsizlik arxitekturasına yaranacaq təhdidlər aradan qaldırılmalıdır. Bir sözlə, sülh hərtərəfli və məzmunlu, dolğun olmalı, bütün ən xırda predmetlərə qədər açıq sual buraxmamalıdır. İrəvan yalnız rəsmi şəkildə konstitusiyasında dəyişiklik etməklə sülh prosesinin ardıcıllığını təmin edə bilər. Ermənistan konstitusiyasını dəyişmədikcə bu ölkənin Azərbaycana qarşı ərazi iddialarının hər an eskalasiyaya çevrilmə təhlükəsi var. Azərbaycanın şərtlərinə əməl edilməyəcəyi təqdirdə sülhdən söhbət belə gedə bilməz. Ölkəmizin bu dəyişməz tələbləri hələ də öz qüvvəsindədir.

Qısa təhlil bu qənaətə gəlməyə əsas verir ki, hazırda Ermənistanın apardığı "sülh təbliğatı" isə heç də səmimi təsir bağışlamır. Ermənistanın beynəlxalq aləmdə sülh tərəfdarı kimi təqdim olunması süni xarakter daşıyır. Beynəlxalq ictimaiyyətin Ermənistanın xalqımıza qarşı törətdiyi soyqırımı aktlarını, Azərbaycan torpaqlarında illərlə vandallıq etməsini, təcavüzkar siyasətini görməzdən gəlməsi regionda daimi sabitlik üçün ciddi maneədir. Qərbin planlaşdırdığı ssenariyə aldanaraq yenidən təxribatlara əl atan Ermənistan unutmasın ki, müharibə variantına əl atsa böyük faciə ilə qarşılaşacaq.

Ermənistanın təxribatçı addımları və revanşist yanaşmaları fonunda Azərbaycan Cənubi Qafqazda sülh və sabitliyi qorumaq istiqamətində ardıcıl və prinsipial siyasət yürüdür. Dövlətimiz sülh müqaviləsinin imzalanmasında sözün həqiqi mənasında israrlı olduğunu nümayiş etdirir. Azərbaycan sülh prinsiplərinə sadiqdir və regionda əbədi sülhün təmin olunması üçün bütün imkanlardan istifadə etməyə çalışır.

***Yaqut Ağaşahqızı***

# Doğum azalır, dünya qocalır

*Dünya əhalisinin 10,3 faizi 65 yaşdan yuxarı insanlardır*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb*





**Birləşmiş Millətlər Təşkilatının Əhali Fondunun (UNFPA) ”Dünya Əhalisinin 2024-cü il Vəziyyəti Hesabatı”na əsasən, qlobal əhalinin dinamikası regional artım modellərində, əhalinin sıxlığında və urbanizasiya nisbətlərində əhəmiyyətli dərəcədə dəyişiklik göstərir. Hesabatda bildirilir ki, dünyanın bir çox yerlərində əhali qocalır, xüsusilə Avropa, Şimali Amerika və Asiyanın bəzi bölgələrində yaşlı insanların nisbəti artır. Bu tendensiya isə səhiyyə sistemi, pensiya planları və işçi qüvvəsi dinamikası üçün problemlər yaradır.**

UNFPA-nın məlumatına görə, 1974-cü ildə dünyada 65 yaşdan yuxarı insanların nisbəti 5,5 olduğu halda, 2024-cü ildə demək olar ki, iki dəfə artaraq 10,3 faiz təşkil edib. 2074-cü ildə bu rəqəmin yenidən iki dəfə artaraq 20,7 faizə çatacağı, 80 və yuxarı yaşda olan insanların sayının isə üç dəfədən çox olacağı gözlənilir. Hazırda inkişaf etmiş ölkələr yaşlı əhalinin ən yüksək nisbətinə malikdirlər, inkişaf etməkdə olan ölkələr isə tez-tez əhalinin sürətli qocalmasının şahidi olurlar. Qlobal səviyyədə əhalinin qocalması, gözlənilən ömür uzunluğunun yaxşılaşması ilə bağlı olsa da, bu, bir çox ölkələrdə doğum səviyyəsinin aşağı düşməsi ilə də əlaqələndirilir.

Dünya əhalisinin artımı yavaş templə davam etsə də, artımın 2080-ci illərə qədər davam edəcəyi proqnozlaşdırılır. Hazırda təbii artımda qlobal məhsuldarlıq ailənin planlaşdırılmasında, təhsildə və iqtisadi amillərdə baş verən dəyişikliklərin təsiri ilə hər qadının təxminən 2,3 uşaq dünyaya gətirməsidir. Şimali Amerika və Avropa da daxil olmaqla inkişaf etmiş regionların ümumi əhalisi 1 milyard 277 milyon olduğu halda, bu ölkələrdə orta doğuş 1,5 uşaqdır. Bunun əksinə olaraq, Asiya, Afrika və Latın Amerikasını əhatə edən inkişaf etməmiş regionlarda 6 milyard 842 milyon insan yaşayır və daha yüksək doğum nisbətinə malikdir, hər qadına 2,4 uşaq düşür.

## Afrikada əhali artır, Asiyada rəqəmlər oynayır

Afrika ən sürətlə böyüyən region olmağa davam etsə də, bu qitənin bir çox ölkəsində əhalinin əhəmiyyətli artımı müşahidə olunur. Nigeriya, Efiopiya və Konqo Demokratik Respublikası kimi ölkələrdə əhalinin yüksək məhsuldarlıq göstəriciləri və təkmilləşdirilmiş səhiyyə sayəsində əhəmiyyətli dərəcədə artacağı gözlənilir. 688 milyon əhalisi olan Şərqi və Cənubi Afrikada, 516 milyon əhalisi olan Qərbi və Mərkəzi Afrikada əhalinin artımı yüksəkdir.Dünya əhalisinin ən böyük hissəsi yaşayan Asiyada Hindistan və Çin kimi ölkələrdə doğuş nisbətlərinin azalması səbəbindən əhali artımında yavaşlama müşahidə olunur, lakin İndoneziya və Filippin kimi Cənub-Şərqi Asiya ölkələrində əhali artımı davam edir.

Əhalinin azalması və ya artımda durğunluğun yaşandığı Avropada buna aşağı doğum əmsalı, əhalinin qocalması və miqrasiya meylləri səbəb olur. Almaniya, İtaliya və Rusiya kimi ölkələr isə azalan işçi qüvvəsi və artan asılılıq nisbətləri ilə mübarizə aparır. Əhalinin sıxlığını nəzərə alsaq, bəzi bölgələr həddən artıq sıxlaşır, digərləri isə urbanizasiyanın təsiri ilə seyrək məskunlaşmaqdadır.

Şəhərlərdə yaşayan dünya əhalisinin yüzdə 55-dən çox olması bu nisbətin artmağa davam edəcəyini göstərir. Tokio, Yeni Dehli və Şanxay kimi şəhərlərdə kiçik ərazilərdə milyonlarla sakin yaşayır. Bunun əksinə olaraq, Kanada, Avstraliya və Rusiya kimi ölkələrdə böyük regionlar coğrafi və iqlim şəraitinə görə seyrək məskunlaşıb.

Ümumiyyətlə, BMT-nin son hesabatında dünya əhalisinin 2030-cu ilə qədər artacağını proqnozlaşdırır. Bu rəqəmin 2050-ci ildə 9,7 milyard, 2100-cü ildə isə 10,4 milyarda çatacağını göstərir. 2050-ci ildə dünya üzrə 65 və yuxarı yaşda olan insanların sayının iki dəfədən çox artacağı və 1,6 milyarda çatacağı proqnozlaşdırılır. BMT 15-24 yaş arası insanları gənc adlandırır. Əgər proqnoz özünü doğrultsa, yaşlı insanlar dünya əhalisinin 16 faizindən çoxunu təşkil edəcək. 2050-ci ilə qədər bu yaş qrupunun dünyada hər 6 nəfərdən 1-ni təşkil edəcəyi təxmin edilir.





## Avropa ölkələrində rekord səviyyə

Birləşmiş Millətlər Təşkilatının 2023-cü ildəki hesabatına görə, Asiya və Avropa dünyanın ən yaşlı əhalisinin məskənidir. Ən yaşlı əhalisi olan ölkələrdən biri Yaponiyadır, əhalisinin 30 faizi 65 və yuxarı yaşdadır. Avropa İttifaqı (Aİ) ölkələrində yaşayan hər 5 nəfərdən 1-i ”65 və yuxarı”dır. Bu kontekstdə İtaliya, əhali ilə müqayisədə yaşlıların ölkə əhalisinin 24,5 % təşkil etməsinə görə birinci yerdədir. İrlandiya 15,5 % ilə Aİ-də yaşlı əhali nisbətinin ən aşağı olduğu ölkələrdən biridir.

2023-cü ildə Avropa İttifaqında (Aİ) doğum səviyyəsinin 4 milyon ətrafında olacağı proqnozlaşdırılsa da, daha aşağı göstərici qeydə alınıb. Avropanın ”Eurostat” statistika xidmətinin məlumatına görə, 2023-cü ildə Aİ-də doğulan uşaqların sayı öncəki illə müqayisədə 5,5 faiz azalaraq 3 milyon 655 min nəfər təşkil edib. Bu, müvafiq statistikanın aparılmağa başlandığı 1961-ci ildən bəri ən aşağı göstəricidir.

”Eurostat” statistika xidmətinin məlumatına görə, uşaqların sayında azalma tendensiyası ən çox Baltikyanı ölkələrdə, Yunanıstanda, İspaniyada, İtaliyada, Polşada və Finlandiyada özünü göstərib. Bu ölkələrdə son on ildə doğulan uşaqların sayında azı 25 faiz azalma müşahidə olunub.Hesab edilir ki, aşağı doğum göstəriciləri əmək qabiliyyətli əhalinin sayının azalmasına səbəb olacaq ki, bu da öz növbəsində sağlamlıq və pensiya xərclərinin artması ilə nəticələnəcək və hökumətin büdcə yükünü artıracaq. Məlumat üçün qeyd edək ki, Aİ ölkələrində pik doğum sayı 1960-cı illərdə qeydə alınıb. O zaman Avropada hər il ortalama 7 milyona yaxın uşaq dünyaya gəlib.

Azərbaycanda da əhalinin yaşlılıq nisbəti artır. Ölkəmizdə doğum səviyyəsi ildən ilə azalır, yaşlı əhalinin ümumi sayda xüsusi çəkisi artır. Statistikaya görə son 23 il ərzində Azərbaycanda əhalinin sayı 26,45 faiz, ahılların sayı isə 99,4 faiz artıb. Ötən il - 2023-cü ildə əhalinin təbii artımı əvvəlki illə müqayisədə 15% azalıb. Bu tendensiya bu il də müşahidə olundu, ilin birinci yarısında, yanvar-iyul ayları ərzində Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 58 min 401 doğulan körpə qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 11,0-dan 9,8-ə düşüb. Ölkəmizdə doğum sayının azalmasındakı ən başlıca səbəblər boşanmaların sayının kütləvi artması, nikaha girən əhalinin azalması, təhsil və karyera planları, habelə maddi problemlərdir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
6 dekabr 2024-cü il

# Şəxs bankdan kredit götürüb ödəyə bilmirsə NƏ ETMƏLİ?






## AYDINLIQ GƏTİRİLDİ

"Şəxs bankdan kredit götürübsə, əgər onu ödəyə bilmirsə, kredit müqaviləsində nəzərdə tutulanları vaxtında yerinə yetirmirsə və yaxud yerinə yetirə bilmirsə, o zaman bankın hüququ yaranır ki, pul tələbi ilə bağlı şəxsi məhkəməyə versin". Bu sözləri SİA-ya açıqlamasında Vəkillər Kollegiyasının üzvü Paşa Səfərov deyib. O bildirib ki, məhkəmə nəticəsində qətnamə qəbul olunur ki, pul şəxsdən tutulub banka ödənilsin: "Həmin qətnamə qüvvəsini aldıqdan sonra icraya gedir. İcra zamanı artıq şəxs o pulu banka ödəməlidir. Əgər ödəyə bilməzsə, onun barəsində məhkəmə qərarını icra etməməsi ilə bağlı inzibati protokol tərtib olunur, inzibati məsuliyyətə cəlb edilir. Bundan sonra da ödəməzsə, artıq onun barəsində cinayət məcəlləsinin 306-cı maddəsi ilə cinayət məsuliyyəti məsələsinə baxılır.

Əmək Məcəlləsinin 175-ci maddəsinin 1-ci hissəsinə əsasən, əmək haqqından müvafiq məbləğlər bu maddə ilə müəyyən edilən hallar istisna edilməklə yalnız işçinin yazılı razılığı ilə, yaxud məhkəmənin qərarı ilə qanunvericiliklə nəzərdə tutulmuş icra sənədləri üzrə tutula bilər. Əmək haqqından tutulma barədə ya yazılı razılıq, ya da məhkəmə qərarı olmalıdır. Hətta bəzi hallarda kredit müqaviləsində belə bir hal nəzərdə tutulur ki, borclu borcu ödəmədikdə, bank xəbərdarlıq etmədən borcu onun əmək haqqına yönəldə bilər. Hətta kredit müqaviləsində belə bir müddəanın olması da banka hüquq vermir ki, borclunun borcunu onun əmək haqqından tutsun.

Əmək Məcəlləsinin 175-ci maddəsinin 6-cı bəndinə əsasən, işçinin ərizəsində göstərdiyi məbləğdə və müddətlərdə əmək haqqının müvafiq hissəsi kommunal xərclərin, bankdan aldığı ssudaların, kreditlərin və digər şəxsi borclarının ödənilməsi üçün tutularaq kreditorlara göndərilə bilər. İşçi belə ərizə ilə işəgötürənə müraciət etməyibsə, onun kreditorlarının tələbi ilə işçinin borcları əmək haqqından tutula bilməz".

**Söylü Ağazadə**

## ELAN

**Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası aşağıdakı kafedralarda vakant yerləri tutmaq üçün müsabiqə elan edir**

Konsertmeyster ustalığı kafedrası
Kafedra müdiri

İxtisas fortepiano kafedrası
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru
Dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru

Solo oxuma və opera hazırlığı kafedrası
Dosent
Müəllim

Metodika və xüsusi pedaqoji hazırlıq kafedrası
Dosent

Fortepiano, orqan və klavesin kafedrası
Baş müəllim

***Müsabiqə müddəti elan qəzetdə dərc edildikdən sonra bir aydır. Ərizə və sənədlər müsabiqə haqqında əsasnaməyə uyğun rektorun adına bu ünvana göndərilə bilər. Bakı şəhəri, Az-1014. Ş.Bədəlbəyli küçəsi 98.***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Bu gün Bakıya leysan yağacaq

*PROQNOZ*



***Bakıda və Abşeron yarımadasında dekabrın 6-da gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, axşam ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı ehtimalı var.***

Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-7° isti, gündüz 8-11° isti olacaq. Atmosfer təzyiqi 772 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 80-85 % olacaq. Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şərq rayonlarında az yağıntılı olacağı, axşam yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 8-12° isti, dağlarda gecə 6-11° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**